AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

19 İYUL 2019-cu il CÜMƏ № 155 (6482) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

## Avropa İttifaqı Şurasının yeni seçilmiş Prezidenti Zati-aliləri cənab Şarl Mişelə

Hörmətli cənab Mişel,

Avropa İttifaqı Şurasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələrin daha da genişlənməsi, əməkdaşlığımızın hərtərəfli inkişafı və dərinləşməsi istiqamətində birgə səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, qarşıdakı məsul fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 18 iyul 2019-cu il.**

## Avropa Komissiyasının yeni seçilmiş Prezidenti Zati-aliləri xanım Ursula Fon der Lyayenə

Hörmətli xanım Fon der Lyayen,

Avropa Komissiyasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi qəlbdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan ilə Avropa İttifaqı arasındakı əməkdaşlıq qarşılıqlı maraqlarımıza uyğun olaraq bundan sonra da müvəffəqiyyətlə inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, qarşıdakı məsul işinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 18 iyul 2019-cu il.**

## "Yol hərəkəti haqqında" və "Notariat haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 17 may tarixli 1594-VQD nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Yol hərəkəti haqqında" və "Notariat haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 17 may tarixli 1594-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*1.1.* Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Yol hərəkəti haqqında" və "Notariat haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*1.2.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.3.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.4.* həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Yol hərəkəti haqqında" və "Notariat haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 10 iyun 2019-cu il.**

## "Yol hərəkəti haqqında" və "Notariat haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci və 23-cü bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1221-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, N 9, maddə 564; 2001, N 5, maddə 298, N 11, maddələr 676, 698; 2002, N 1, maddə 9, N 8, maddə 463; 2003, N 8, maddə 424; 2004, N 2, maddə 57, N 11, maddə 901; 2005, N 4, maddə 277, N 10, maddə 874, N 11, maddə 993; 2006, N 12, maddə 1027; 2007, N 6, maddə 560, N 11, maddələr 1053, 1091; 2008, N 2, maddə 49, N 6, maddələr 453, 463, N 7, maddə 602; 2009, N 2, maddə 47, N 4, maddə 210, N 12, maddə 948; 2010, N 7, maddə 598; 2011, N 2, maddə 71, N 4, maddə 255, N 6, maddə 469, N 12, maddə 1097; 2012, N 5, maddə 402, N 7, maddə 671; 2013, N 4, maddələr 362, 363, N 7, maddə 795, N 11, maddələr 1295, 1298; 2014, N 4, maddələr 343, 346, N 5, maddə 467, N 11, maddə 1352; 2015, N 1, maddə 2, N 2, maddələr 76, 79, 105, N 5, maddə 502, N 6, maddə 686, N 11, maddələr 1256, 1276; 2016, N 11, maddələr 1758, 1784, 1795; N 12, maddə 1993; 2017, N 2, maddələr 138, 150; N 5, maddə 727, N 8, maddə 1507, N 10, maddə 1774, N 12 (I kitab), maddə 2215; 2018, N 2, maddələr 143, 157, N 4, maddə 645, N 6, maddələr 1165, 1192, N 7 (I kitab), maddələr 1432, 1436, 1439; 2019, N 1, maddə 46) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 27-ci maddənin VI-I hissəsinin birinci cümləsinə "hüquqi şəxslər" sözlərindən sonra "(dövlət qurumları)" sözləri əlavə edilsin;

1.2. 53-cü maddənin XIX hissəsinin ikinci cümləsində "xəta haqqında elektron protokol tərtib olunur" sözləri "tənbeh vermə haqqında elektron qərar çıxarılır" sözləri ilə əvəz edilsin.

**Maddə 2.** "Notariat haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 1, maddə 10, N 6, maddə 414; 2001, N 5, maddə 293, N 11, maddə 687, N 12, maddə 740; 2002, N 5, maddə 241, N 6, maddə 328, N 12, maddə 706; 2004, N 5, maddə 318; 2005, N 4, maddə 281, N 8, maddə 699, N 10, maddə 903, N 11, maddə 993; 2007, N 1, maddə 4, N 2, maddə 69, N 8, maddə 745, N 11, maddələr 1053, 1075; 2008, N 6, maddə 462, N 7, maddə 602; 2009, N 1, maddə 5, N 7, maddə 517, N 11, maddə 878; 2010, N 7, maddə 597, N 11, maddə 938; 2011, N 4, maddə 258, N 12, maddə 1098; 2012, N 10, maddə 946; 2013, N 11, maddə 1271; 2014, N 11, maddə 1353; 2015, N 5, maddə 487; 2016, N 1, maddə 11, N 7, maddə 1243, N 12, maddə 2025; 2017, N 2, maddə 148, N 12 (I kitab), maddə 2236; 2018, N 7 (I kitab), maddə 1388, N 8, maddə 1673, N 11, maddə 2230; 2019, N 1, maddə 22) 32-ci maddəsinin doqquzuncu hissəsinin birinci cümləsinə "hüquqi şəxslərin" sözlərindən sonra "(dövlət qurumlarının)" sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 17 may 2019-cu il.**

## Maliyyə Nazirliyi 6 ayda dövlət büdcəsinin icrasına dair məlumat yayıb

**Bu ilin 6 ayında dövlət büdcəsinin mədaxili 10 milyard 405,5 milyon manat, xərcləri 10 milyard 951 milyon manat olub, 545,5 milyon manat məbləğində dövlət büdcəsinin kəsiri (defisit) yaranıb.**

Maliyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, yarım ildə dövlət büdcəsinin mədaxili 10 milyard 405,5 milyon manat icra olunub, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 6 faiz və yaxud 590,2 milyon manat çoxdur.

Vergilər Nazirliyi tərəfindən dövlət büdcəsinə 3 milyard 632,8 milyon manat vəsait daxil olub ki, bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 7,4 faiz və ya 250,3 milyon manat çoxdur. Həmin vəsaitin 70,1 faizi və yaxud 2 milyard 245,3 milyon manatı qeyri-neft sektorundan daxilolmaların payına düşür ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 318,8 milyon manat və ya 14,3 faiz çoxdur.

Hesabat dövründə Dövlət Gömrük Komitəsi tərəfindən dövlət büdcəsinə 2 milyard 65,2 milyon manat vəsait təmin edilib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 27,6 faiz və yaxud 446,2 milyon manat çoxdur. Dövlət büdcəsindən maliyyələşdirilən təşkilatların ödənişli xidmətlərindən daxilolmaları 234,4 milyon manat təşkil edib ki, bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 30,9 faiz və ya 55,5 milyon manat çoxdur.

Sair daxilolmalar üzrə büdcəyə 60,1 milyon manat vəsait daxil olub. Azərbaycan Respublikasının Dövlət Neft Fondundan dövlət büdcəsinə 4 milyard 413 milyon manat vəsait transfert edilib. Bu ilin aprel-iyun ayları üzrə dövlət büdcəsinin mədaxil proqnozu 4 milyard 965,8 milyon manat icra olunub.

Cari ilin 6 ayında dövlət büdcəsinin xərcləri 10 milyard 951 milyon manat icra olunub ki, bu da 2018-ci ilin eyni dövrü ilə müqayisədə 15 faiz və ya 1 milyard 426,7 milyon manat çoxdur.

İqtisadi təsnifata uyğun olaraq cari ilin ilk 6 ayında dövlət büdcəsi xərclərinin 36,1 faizi və ya 3 milyard 953,7 milyon manatı sosialyönümlü xərclərin (əməyin ödənişi fondu, təqaüd və sosial müavinətlər, dərman və ərzaq xərcləri) maliyyələşdirilməsinə yönəldilib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 9 faiz və ya 328 milyon manat çoxdur. Yarım ildə dövlət büdcəsi xərclərinin 5 milyard 621 milyon manatı və ya 51,3 faizi cari xərclərə, 3 milyard 941,6 milyon manatı və ya 36 faizi əsaslı xərclərə, 1 milyard 388,4 milyon manatı və ya 12,7 faizi dövlət borcuna və öhdəliklərinə xidmətlə bağlı xərclərə yönəldilib.

Aprel-iyun ayları üzrə dövlət büdcəsinin xərcləri 5 milyard 891,8 milyon manat icra olunub ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 775,5 milyon manat və ya 15,2 faiz çoxdur.

Altı ayda icmal büdcənin gəlirləri 17 milyard 583,1 milyon manat olub ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 2 milyard 467,6 milyon manat və ya 16,3 faiz çoxdur. İcmal büdcənin xərcləri 11 milyard 682 milyon manat icra olunub ki, bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 839 milyon manat və ya 7,7 faiz çoxdur. İcmal büdcədə 5 milyard 901,1 milyon manat büdcə artıqlığı (profisit) yaranıb.

**AZƏRTAC**

# TRANSMİLLİ LAYİHƏLƏR AZƏRBAYCANI İNKİŞAF ETMİŞ ÖLKƏYƏ ÇEVİRİR

## *Ölkəmizin iqtisadi qüdrəti ilbəil artır, siyasi nüfuzu güclənir və beynəlxalq mövqeləri möhkəmlənir*

**Azərbaycanda neft və qeyri-neft sektoruna aid müxtəlif beynəlxalq səviyyəli layihələr uğurla həyata keçirilir, nəticədə olduqca geniş regional əməkdaşlığa möhkəm zəmin yaranıb. Fenomen siyasətçi, uzaqgörən dövlət rəhbəri Heydər Əliyev milli neft strategiyasını hazırladı. Bu strategiya həm Azərbaycanın neft və qazını dünya bazarlarına çıxarmağı, həm də Mərkəzi Asiyanın karbohidrogen ehtiyatlarının Azərbaycan ərazisi vasitəsilə Avropa bazarlarına nəqlini, beləliklə, ölkəmizin mühüm beynəlxalq hasilatçı, istehsalçı və tranzit qovşağına çevrilməsini nəzərdə tuturdu. Bu nəql Azərbaycanı regionda mühüm iqtisadi, siyasi mərkəzə çevirməklə yanaşı, onun siyasi nüfuz və qüdrətinin artmasına, həm də müstəqilliyinin möhkəmlənməsinə güclü təməl yaradacaqdı. O zaman bu strategiya nəticəsində Azərbaycanın regionda iqtisadi qüdrət və siyasi nüfuz sahibi olacağını, regionda lider dövlətə çevriləcəyini görən çox güclü beynəlxalq əleyhdarları vardı. Onlar bütün vasitələrlə Heydər Əliyevin neft strategiyasının həyata keçməsinə mane olmağa çalışırdılar. Ulu öndərin qətiyyəti, məharəti, müdrik, uzaqgörən siyasi gedişləri və iradəsi ilə bütün maneələr dəf edildi. 1994-cü il sentyabr ayının 20-də Bakıda dünyanın 11 transmilli neft şirkətinin iştirakı ilə "Əsrin müqaviləsi" imzalandı. Bu sazişlə MDB məkanında Xəzər dənizi hövzəsində ilk beynəlxalq strateji iqtisadi, siyasi əməkdaşlığın bünövrəsi qoyuldu.**

Bu kontraktın reallaşmasının nəticəsi olaraq Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz ixrac boru kəmərləri inşa edildi və Azərbaycan iqtisadiyyatının dirçəldilməsinə, çoxşaxəliliyinə zəmin yarandı. Hər bir iqtisadi-siyasi formasiyada iqtisadiyyat bazisdir. Onun gətirdiyi maliyyə vəsaiti sayəsində geniş, lazımi islahatlar aparılır və layihələr icra olunur. Bu gün Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi xətt, strateji kurs Azərbaycan Prezidenti İlham Əliyev fərəfindən müasir dövrün çağırışlarına müvəffəqiyyətlə cavab verməklə həyata keçirilir və mükəmməl bir konsepsiya kimi diqqəti cəlb edir. Azərbaycanın milli maraqları ehtiva edən dövlət quruculuğu və intensiv innovativ sosial-iqtisadi inkişafı ölkəni bölgənin qüdrətli dövləti səviyyəsinə çatdırıb. Düşünülmüş siyasətlə neftdən gələn gəlirin qeyri-neft sektorunun inkişafına yönəldilməsilə artıq iqtisadi inkişafda çox böyük nailiyyətlərə də imza atılmış, enerji, ərzaq və nəqliyyat təhlükəsizliyi təmin edilmişdir. Beləliklə, ölkəmiz dünyanı bürümüş iqtisadi və maliyyə böhranından ən az zərər çəkmiş və iqtisadi inkişafını davam etdirmişdir. Ölkə Prezidenti İlham Əliyev "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının yekunlarına həsr olunan konfransdakı nitqində son on beş ildə davamlı, yüksək templi inkişafın əsas səbəbləri barədə demişdir ki, Azərbaycanda bu gün davam edən hərtərəfli inkişafın səbəbi düşünülmüş siyasətlə aparılan islahatlar, reallaşdırılan müasir layihələrdir. Dövlətin siyasətini dəstəkləyən xalq öz gələcəyinə çox nikbinliklə baxır. Bu gün Azərbaycanda uzaqgörənliklə müəyyənləşdirilən strategiya ölkəmizin hərtərəfli inkişafına imkan verir. Bunun əsas səbəbi dövlətin apardığı müstəqil iqtisadi siyasətdir, xalqla iqtidar birliyidir.

Heydər Əliyevin müəllifi olduğu Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri beynəlxalq əməkdaşlığın mühüm, səmərəli nümunəsidir. Mərkəzi Asiyadan tutmuş Avropanın aparıcı dövlətlərini və transmilli qurumları bir araya gətirmiş bu kəmərin iqtisadi, siyasi-coğrafi əhəmiyyəti, sosial-iqtisadi inkişafa və regional sabitliyə verdiyi dividendlər dünyanın ən mühüm kürsülərində etiraf edilməkdədir. BTC və BTƏ kəmərlərinin istsmarı, həm də Azərbaycanın Avrasiya materikində ən mühüm təhlükəsiz və səmərəli enerji nəqli dəhlizi olmasını da sübut etmişdir. Azərbaycan zəngin qaz yataqlarına malikdir və iri ehtiyatlara malik ölkələr sırasına daxildir. Dünya dövlətlərinin iqtisadiyyatının inkişafında, dayanıqlığında həyati rol oynayan karbohidrogen ehtiyatları ilə fasiləsiz və təhlükəsiz təminat mühüm yer tutur. BTC və BTƏ kəmərlərinin istsmarı, Azərbaycanın neft-qaz sektorunda tərəfdaşlığının perspektivliliyini sübut etmişdir. Ötən dövrdəki fasiləsiz təchizat, dövlətlərin iqtisadi, sosial və siyasi həyatlarında bu istiqamətdə problemlərin yaşanmaması neft-qaz sahəsinə həm daxili, həm də xarici investisiyaların yatırılmasına stimul verən amillərdən biridir. Yeni kəşf edilən yataqlar, tikilən platformalar, qazılan quyular ölkənin enerji potensialının yüksək olduğunu göstərir.




Hazırda Azərbaycan lideri olduğu XXI əsrin nəhəng qaz ixracı boru kəməri layihəsi TANAP-ın icrasına başa çatdırmışdır. Təbii ki, bu layihənin təməlində BTC və BTƏ kəmərlərinin istsmarının uğurları dayanır. "Şahdəniz-2", TANAP və TAP Avropanın ən böyük infrastruktur layihələridir. Dövlət bu layihələrdə həlledici rol oynayır və bu layihələrin təşəbbüskarı da Azərbaycandır. Əminliklə demək olar ki, Bütün riskləri - maliyyə risklərini, texniki risklərin hamısını öz üzərinə götürən Azərbaycan BTC və BTƏ kəmərlərinin inşasındakı kimi, yenə də dəqiq, konkret icra mexanizmlərinə riayət edərək bu layihənin vaxtında reallaşmasına nail olub.

Hazırda Azərbaycan Avropa ilə Asiya arasında mühüm tranzit və nəqliyyat qovşağına çevrilib. Qazaxıstan və Türkmənistanın karbohidrogen ehtiyatları BTC və BTƏ kəmərləri vasitəsilə Türkiyəyə və Avropaya çatdırılır. Dünya ölkələri ilə əməkdaşlıqda qazanılan iqtisadi, siyasi və sosial dividendlər digər ölkələrin maraqlarını da Azərbaycana yönəldir. Artıq istsmara verilmiş Avropa və Asiyanı birləşdirən Bakı-Tbilisi-Qars dəmiryolu da iki qitə dövlətlərinin iqtisadi əməkdaşlığına geniş şərait yaradır və mənafelərinə uyğundur.

Azərbaycan tarixən bu praktik prosesdə irəlidə getmiş, bu gün də bütün dövlətlərə nümunəvi əməkdaşlıq və birgəyaşayış modelini nümayiş etdirməkdədir. Hazırda ölkəmizin yaratdığı əlaqələr heç də qədim Böyük İpək Yolunun keçdiyi əraziləri əhatə etmir, daim genişlənir. Belə ki, Yaxın Şərqə və cənuba - Hind okeanına qədər ərazilər tranzit nəqliyyatına daxildir. İndi müasir Böyük İpək Yolu Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərindən və onların məhz Azərbaycandakı 4 qütbü birləşdirən qovşağından ibarətdir. Beləliklə, biz uğurlu siyasət sayəsində ölkəmizin Avrasiya materikində son dərəcə böyük bir ərazidə onlarla dövləti əhatə edən nəqliyyat-loqistika mərkəzinə çevrildiyinin də əyani şahidiyik. Bu beynəlxalq əhəmiyyət daim artmaqda və iqtisadi-siyasi mövqe güclənməkdədir.

Böyük İpək Yolunun bərpası Azərbaycanın Çinin təşəbbüsü ilə gerçəkləşən "İpək Yolu iqtisadi kəməri" layihəsinin çox fəal və mühüm iştirakçısı olması ilə baş tutmuşdur. Böyük strateq, ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 1998-ci il sentyabrın 7-8-də Bakı şəhərində Azərbaycan, Türkiyə, Gürcüstan, Ukrayna, Moldova, Rumıniya, Bolqarıstan, Özbəkistan və Qırğızıstan dövlət başçılarının, 13 beynəlxalq təşkilat və 32 dövlətin nümayəndə heyətinin iştirakı ilə keçirilən tarixi İpək Yolunun bərpasına həsr olunmuş beynəlxalq konfransda Avropa İttifaqının TRASEKA proqramı əsasında "Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında Əsas Çoxtərəfli Saziş" imzalanaraq Bakı Bəyannaməsi qəbul edilib. Bu Sazişin müddəalarına uyğun olaraq, TRASEKA Hökumətlərarası Komissiyasının Daimi Katibliyinin Bakı şəhərində yerləşdirilməsi qərara alındı və 2001-ci il fevralın 21-də rəsmi açılışı oldu. Ulu öndərin təşkilatçılığı və bu yekun qərarıyla Azərbaycan tarixi İpək Yolunun bərpa edilməsində və əlaqədar inkişaf trayektoriyalarının müəyyənləşdirilməsində əsas rol oynayıb.

**(davamı 4-cü səhifədə)**

# Xronika

## ÖTƏN GÜNLƏRİN TARİXİ ANLARI



*2018-ci il aprelin 11-də keçirilmiş Prezident seçkilərində xalqın böyük istəyi və seçimi ilə möhtərəm İlham Heydər oğlu Əliyev azad, ədalətli, şəffaf və demokratik şəraitdə yenidən Azərbaycan Respublikasının Prezidenti seçildi.*

*Prezidentin Azərbaycana, xalqa sədaqət andı içdiyi uğurlu gündən başlayaraq onun gərgin iş günü tükənməz enerji ilə, çoxcəhətli ictimai-siyasi fəaliyyətlə davam edir.*

*Böyük şəxsiyyət, ümummilli lider Heydər Əliyevin siyasi kursunu, onun keçdiyi şərəfli yolu ləyaqətlə davam etdirən möhtərəm İlham Əliyev hər bir Azərbaycan vətəndaşının prezidentidir. Ölkəmizin həyatında yeni mərhələnin reallaşması onun yorulmaz fəaliyyəti, dərin zəkası, uzaqgörənliyi ilə sıx bağlıdır.*

*İlham Əliyevin gündəlik gərgin əməli fəaliyyəti sayəsində ölkəmizin ictimai-iqtisadi və sosial həyatının misli görünməmiş yüksəlişi bütün dünya ictimaiyyətinin də diqqət mərkəzindədir. Bu gün Azərbaycan böyük yüksəliş yolundadır.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2018-ci il aprel ayının 18-dən başlayan gündəlik fəaliyyəti, səfərləri, görüşləri, çıxışları, nitqləri, məruzələri, müsahibələri və qəbulları ardıcıllıqla yada salınacaq, oxucuların nəzərinə çatdırılacaqdır. Burada həmin "Xronika–ötən günlərin tarixi anları" təqdim olunur.*

**"Respublika".**

Xronika Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasının "Azərbaycan Respublikasının Prezidenti: Gündəlik fəaliyyətin xronikası" adlı elektron biblioqrafik göstəricisinin materialları əsasında hazırlanmışdır.

*(əvvəli 20, 21, 25 aprel, 2, 13, 20, 31 may, 8, 24, 30 iyun, 18, 25, 29 iyul, 1, 30 avqust, 1, 2, 4 sentyabr, 3, 4, 5, 6, 7, 9, 14, 21 oktyabr, 4, 25, 27, 28, 29, 30 noyabr, 1, 2 dekabr 2018-ci il, 11 yanvar, 5, 6, 7, 9, 14 və 18 iyul 2019-cu il tarixli saylarımızda)*

### 23 yanvar 2019-cu il

- **Azərbaycan Prezidenti İlham Əliyevin İsveçrəyə işgüzar səfəri:** Davosda "Procter and Gamble Europe" şirkətinin prezidenti ilə görüş.
- **Azərbaycan Prezidenti İlham Əliyevin İsveçrəyə işgüzar səfəri:** Azərbaycan Prezidenti İlham Əliyevin "The Boston Consulting Group" şirkətinin prezidenti ilə görüşü olub.
- **Azərbaycan Prezidenti İlham Əliyevin İsveçrəyə işgüzar səfəri:** Prezident İlham Əliyev "Lazard Freres" şirkətinin baş icraçı direktoru ilə görüşüb.
- **Azərbaycan Prezidenti İlham Əliyevin İsveçrəyə işgüzar səfəri:** Prezident İlham Əliyevin "VTB-Bank"ın prezidenti ilə görüşü olub.




- **Azərbaycan Prezidenti İlham Əliyevin İsveçrəyə işgüzar səfəri:** Azərbaycan Prezidenti İlham Əliyevin və İsveçrə Prezidenti Ueli Maurerin görüşü olub.
- **Azərbaycan Prezidenti İlham Əliyevin İsveçrəyə işgüzar səfəri:** Prezident İlham Əliyevin "Suez Group"un beynəlxalq inkişaf üzrə icraçı vitse-prezidenti ilə görüşü.
- **Azərbaycan Prezidenti İlham Əliyevin İsveçrəyə işgüzar səfəri:** Prezident İlham Əliyev "Equinor" şirkətinin baş icraçı direktoru ilə görüşüb.
- **Hindistan Respublikasının Prezidenti Zati-aliləri cənab Ram Nat Kovində:** Hindistan Respublikasının milli bayramı münasibətilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təbriki.
- **Avstraliya İttifaqının General-Qubernatoru Zati-aliləri cənab Piter Kosqrova:** Avstraliya Günü münasibətilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təbriki.

### 24 yanvar 2019-cu il

- **Prezident İlham Əliyev Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutunun açılışında iştirak edib.**

### 28 yanvar 2019-cu il

- **Azərbaycan Prezidenti İlham Əliyev şəhid ailələri ilə görüşüb: Prezident İlham Əliyevin çıxışı.**



### 29 yanvar 2019-cu il

- **Regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının yekunlarına həsr olunan konfrans keçirilib:** Prezident İlham Əliyev konfransda iştirak edib: Prezident İlham Əliyevin giriş nitqi.
- **Regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının yekunlarına həsr olunan konfrans keçirilib:** Prezident İlham Əliyevin yekun nitqi.
- **Prezidentin Mətbuat Xidmətinin məlumatı: yanvarın 29-da axşam ABŞ Prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Con Bolton Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.**

*(davamı növbəti saylarımızda)*

# Azərbaycanın Baş Nazirinin müavini BMT-nin Yüksək Səviyyəli Siyasi Forumunun Nazirlər Seqmentində çıxış edib

**ABŞ-ın Nyu-York şəhərində səfərdə olan Azərbaycan Respublikası Baş Nazirinin müavini Əli Əhmədov BMT-nin Yüksək Səviyyəli Siyasi Forumunun dövlət və hökumət rəsmilərinin iştirak etdikləri Nazirlər Seqmentində çıxış edib.**

AZƏRTAC xəbər verir ki, Əli Əhmədov Azərbaycanda həyata keçirilən sosial-iqtisadi islahatlar, o cümlədən inklüziv və bərabər keyfiyyətli təhsilin təmin edilməsi, dayanıqlı iqtisadi artımın, tam və səmərəli məşğulluğun, layiqli işlə təmin olunmanın dəstəklənməsi, "heç kimin geridə qalmaması" prinsipinə əsaslanaraq əhalinin həssas təbəqəsinin sosial vəziyyətinin yaxşılaşdırılması barədə ətraflı məlumat verib. O, son 15 ildə 2 milyondan çox iş yerinin yaradıldığını, əməkhaqları və pensiyaların dəfələrlə artırıldığını, sosial infrastrukturun əhəmiyyətli dərəcədə yaxşılaşdırıldığını diqqətə çatdırıb.




Baş Nazirin müavini Azərbaycanda Dayanıqlı İnkişaf Məqsədlərinin (DİM) icrası istiqamətində fəaliyyətlərin səmərəli əlaqələndirilməsi məqsədilə yüksək səviyyəli Milli Əlaqələndirmə Şurasının yaradıldığını, DİM-lərə inteqrasiya prosesinin davam etdirildiyini və bütün maraqlı tərəflərin bu prosesə cəlb edilməsi üçün respublika səviyyəsində müxtəlif ictimai dinləmələrin həyata keçirildiyini bildirib.

Eyni zamanda, Baş Nazirin müavini, ölkəmizdə DİM-lərə nail olunması istiqamətində əsas çətinliklərdən bəhs edərək Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi haqqında beynəlxalq ictimaiyyətin nümayəndələrini bir daha məlumatlandırıb, münaqişə nəticəsində erməni işğalçıları tərəfindən Azərbaycan torpaqlarının 20 faizinin işğal olunduğunu və 1 milyondan çox soydaşımızın yurd-yuvalarından qaçqın və məcburi köçkün düşdüyünü, bütün bunların ölkədə dayanıqlı inkişaf məqsədlərinə nail olunmasında çətinliklər yaratdığını diqqətə çatdırıb. O, BMT-nin Təhlükəsizlik Şurasının münaqişəyə dair qəbul etdiyi qətnamələrin hələ də yerinə yetirilmədiyini vurğulayıb.

**AZƏRTAC**

# BMT Baş katibinin müşaviri Azərbaycanda aparılan sosial-iqtisadi islahatları yüksək qiymətləndirib

**Azərbaycanın Baş Nazirinin müavini, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri Əli Əhmədov BMT Baş katibinin inkişaf və əlaqələndirmə məsələləri üzrə müşaviri Robert Piper və Misirin Planlaşdırma, Monitorinq və Administrativ İslahatlar naziri xanım Hala Əlsaid ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, Robert Piper ilə görüşdə Əli Əhmədov Azərbaycanın BMT-nin müxtəlif ixtisaslaşmış qurumları ilə əməkdaşlığının uğurla davam etdiyini, bu əməkdaşlıq çərçivəsində bir sıra uğurlu layihələrin həyata keçirildiyini, o cümlədən ölkəmizin BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri təşəbbüsünə qoşulması ilə təşkilatla əməkdaşlıqda yeni səhifə açıldığını vurğulayıb. Azərbaycanın Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunmasında da ön sıralarda olmağı planlaşdırdığı, bu məqsədlə ölkədə bütün fəaliyyət planları, strategiyalar və dövlət proqramlarının DİM-lərə uyğunlaşdırıldığı diqqətə çatdırılıb.



Bundan başqa, Ermənistanın işğalçılıq siyasəti nəticəsində Azərbaycan torpaqlarının 20 faizinin işğal olunduğu, 1 milyondan çox azərbaycanlının yurd-yuvalarından qaçqın və məcburi köçkün düşdüyü və bütün bunların ölkədə Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunmasında çətinliklər yaratdığı qeyd edilib. Bu məqsədlə dövlət tərəfindən qaçqın və məcburi köçkünlərin məşğulluğunun təmin edilməsi, onların sosial xidmətlərə çıxışının artırılması və maddi rifah halının yaxşılaşdırılması istiqamətində tədbirlərin görüldüyü vurğulanıb.

Baş katibin müşaviri Robert Piper BMT sistemində aparılan islahatlar barədə məlumat verib və bu dəyişikliklərin ölkələrlə əməkdaşlıqda daha səmərəli nəticələrə nail olunacağını söyləyib. O, Azərbaycanda aparılan sosial-iqtisadi islahatları və ölkəmizin DİM-lərin həyata keçirilməsində göstərdiyi səyləri yüksək qiymətləndirib. Baş katibin müşaviri Azərbaycanda qısa müddət ərzində DİM-lərə inteqrasiya istiqamətində görülən işləri, habelə regionda və MDB məkanında ilk ölkə olaraq Azərbaycan tərəfindən ikinci dəfə BMT-nin Yüksək Səviyyəli Siyasi Forumunda ikinci Könüllü Milli Hesabatın təqdim olunduğunu vurğulayaraq, bütün bunların ölkəmizin DİM-lərə nail olunmasında sərgilədiyi müsbət yanaşmanın nümunəsi olduğunu diqqətə çatdırıb. Robert Piper DİM-lərə nail olunmasında bütün maraqlı tərəflərin prosesə cəlb olunmasının vacibliyini qeyd edərək, xüsusilə bu istiqamətdə dövlət-özəl sektor tərəfdaşlığının əhəmiyyətini vurğulayıb. Bu məqsədlə BMT, Dünya Bankı və Beynəlxalq Valyuta Fondu ilə birlikdə regionda DİM-lərin həyata keçirilməsi üzrə ən uğurlu ölkə olduğunu nəzərə alaraq Azərbaycanda bu istiqamətdə pilot layihələrin həyata keçirilməsinin mümkünlüyünü diqqətə çatdırıb.

Baş katibin müşaviri Dağlıq Qarabağ probleminin sülh yolu ilə həll edilməsi üçün BMT-nin hər zaman Azərbaycana dəstək verməyə hazır olduğunu diqqətə çatdırıb. O eyni zamanda, məcburi köçkünlərin əmək bazarına inteqrasiya edilməsi və məşğulluqlarının artırılması istiqamətində Azərbaycan Hökuməti ilə birgə layihələrin həyata keçirilməsinin mümkünlüyünü qeyd edib.

Nazir Hala Əlsaidlə görüş zamanı Baş Nazirin müavini Əli Əhmədov Azərbaycanın Misirlə daim dostluq münasibətlərinin olduğunu və bir sıra istiqamətlərdə əməkdaşlıq etdiklərini diqqətə çatdırıb. O, bu əməkdaşlığın gələcəkdə DİM-lər, əhali artımı və demoqrafik planlaşdırma üzrə daha da genişləndirilməsinin mümkünlüyünü vurğulayıb.

Xanım Hala Əlsaid Azərbaycanı DİM-lərin həyata keçirilməsi üzrə müsbət təcrübə qazanması və artıq 2 milli hesabat təqdim etməsi münasibətilə təbrik edib. O, bu istiqamətdə Misir Ərəb Respublikası ilə əməkdaşlığın genişləndirilməsini təklif edib. Nazir, eyni zamanda, Azərbaycanda əhaliyə göstərilən dövlət və sosial xidmətlərin səmərəli tətbiqi üçün yaradılan "ASAN" və "DOST" mərkəzlərinin fəaliyyəti ilə tanış olmaq və bu təcrübənin Misirdə tətbiq edilməsi üçün əməkdaşlığın qurulması məqsədilə ölkəmizə səfər etmək niyyətinin olduğunu bildirib. Səfər Baş Nazirin müavini tərəfindən müsbət qarşılanıb və xanım nazir Bakıya dəvət edilib.

**AZƏRTAC**

# Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar nazirinin rəhbərliyi ilə Azərbaycan nümayəndə heyəti İranda səfərdədir

**İyulun 18-də İran İslam Respublikasının paytaxtı Tehranda 25-ci Beynəlxalq Elektronika, Kompüter və Elektron Ticarət ("Elecomp-2019") sərgisi işə başlayıb. Azərbaycanın Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri Ramin Quluzadənin rəhbərliyi ilə İranda səfərdə olan nümayəndə heyətimiz sərginin açılış mərasimində iştirak edib.**

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, ölkəmiz "Elecomp-2019"da yerli texnologiya şirkətlərinin innovativ məhsul və həllərinin nümayiş edildiyi Milli Pavilyonla təmsil olunur.

Azərbaycan, İran, İraq və Qətərin sahəvi nazirlərinin iştirakı ilə təşkil olunmuş VİP tur çərçivəsində yüksəksəviyyəli rəsmilər Milli Pavilyonumuzu ziyarət ediblər.

Rəsmilərə, yerli İKT şirkətlərinə, eləcə də ziyarətçilərə Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin İnnovasiyalar Agentliyinin yüksək texnologiyalar sahəsindəki fəaliyyəti, gələcək planları və ölkədə mövcud olan innovasiya ekosistemi barədə məlumat verilib.



Həmçinin poçt sahəsi üzrə fəaliyyət, "Şəbəkə" layihəsi və bulud xidmətləri haqqında geniş məlumat təqdim olunub.

Səfər çərçivəsində Azərbaycan, İran, Rusiya və Türkiyənin sahəvi nazirlərinin dördtərəfli görüşü keçirilib. Görüşdə innovasiyalar və İKT sektorunda çoxtərəfli formatda əməkdaşlıq imkanlarına dair geniş fikir mübadiləsi aparılıb. İnnovativ startaplar və İKT şirkətləri arasında əlaqələrin inkişaf etdirilməsi məqsədilə qarşılıqlı səfərlərin və birgə tədbirlərin təşkili qərara alınıb.

Həmçinin nazir R.Quluzadə ilə İranın Rabitə və İnformasiya Texnologiyaları naziri Məhəmməd Cavad Azəri Cəhromi və Yollar və Şəhərsalma naziri Məhəmməd Eslami, o cümlədən Rusiyanın Rəqəmsal İqtisadiyyat, Rabitə və Kütləvi Kommunikasiyalar naziri Konstantin Noskov arasında keçirilmiş ikitərəfli görüşlərdə müvafiq sahədə qarşılıqlı maraq doğuran məsələlərə dair müzakirələr aparılıb.

Nümayəndə heyətimiz İranla Azərbaycan arasında yüksək keyfiyyətli rabitənin təmin edilməsi, İrandan Azərbaycana giriş trafiki həcminin artırılması, "AzİnTelecom" MMC ilə İran "TİC" şirkətlərinin tranzit-texniki imkanlarından qarşılıqlı istifadə edilməsi üzrə ikitərəfli görüşlər keçirib.

Eyni zamanda, İranda fəaliyyət göstərən startaplar üçün də "Fast Track" Akselerasiya Proqramının təşkil olunması müzakirə edilib. İnnovasiyalar Agentliyi və ölkəmizin innovasiya ekosistemi barədə təqdimat olub.

Azərbaycan nümayəndə heyəti İran Rəqəmsal İqtisadiyyat Forumunda da iştirak edib.

**AZƏRTAC**

*Leyla Abdullayeva:*

# Bu hadisə Minsk qrupu həmsədrlərinin xalqların sülhə hazırlanması ilə bağlı çağırışına tam şəkildə ziddir

*Xarici İşlər Nazirliyinin mətbuat katibi Ermənistan silahlı qüvvələrinin sərhəd döyüş məntəqəsinin mövqelərini atəşə tutması və nəticədə Dövlət Sərhəd Xidmətinin əsgərinin yaralanması faktı ilə bağlı açıqlama verib*

**Ermənistan silahlı qüvvələri atəşkəs rejimini pozaraq Qazax rayonunun II Şıxlı kəndi yaxınlığındakı sərhəd döyüş məntəqəsinin mövqelərini iriçaplı silahlardan atəşə tutub və hadisə zamanı Dövlət Sərhəd Xidmətinin əsgəri Ceyhun Bayramov yaralanıb. Xüsusilə vurğulamaq istərdik ki, bu hadisə Ermənistan-Azərbaycan qoşunlarının təmas xəttində deyil, məhz Ermənistan-Azərbaycan sərhədində baş verib.**

AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin mətbuat katibi Leyla Abdullayevanın açıqlamasında yer alıb.

Leyla Abdullayeva bildirib ki, Ermənistanın Baş naziri dünən müsahibəsində münaqişənin həlli üzrə aparılan danışıqların konkret nəticə verməsi üçün erməni və azərbaycanlı xalqlarının maraqlarına cavab verən həllin əldə olunmasının vacibliyindən bəhs edib. Bu bəyanatın verilməsindən bir neçə saat sonra Ermənistan-Azərbaycan sərhədində sözügedən insident baş verib. Belə olduğu halda, Ermənistan rəhbərinin sülh və münaqişənin həlli ilə bağlı dediklərinə necə inanmaq olar?! Baş vermiş bu hadisə ATƏT-in Minsk qrupunun həmsədrlərinin xalqların sülhə hazırlanması ilə bağlı məlum çağırışına tam şəkildə ziddir.

"Ermənistan rəhbərliyi sonunda anlamalıdır ki, həm erməni, həm də azərbaycanlı xalqlarının marağında olan əsas məsələ bölgədə davamlı sülh və rifahın təmin edilməsidir. Buna nail olmağın yeganə yolu isə hərbi işğal amilinin aradan qaldırılması, Azərbaycanın işğal olunmuş torpaqlarının azad edilməsi və bu ərazilərdən didərgin salınmış məcburi köçkünlərin öz evlərinə geri qayıtmasının təmin olunmasıdır. Yalnız bundan sonra bölgədə hər iki xalqın marağına cavab verən dayanıqlı sülh, inkişaf və tərəqqi təmin ediləcək", - deyə Xarici İşlər Nazirliyinin mətbuat katibi bildirib.

**AZƏRTAC**

SUMQAYIT - 70

# Sumqayıt davamlı inkişaf dövründə

**Bu gün birgə yaşadığımız, ömür sürdüyümüz dünyamızda mövcud olan çoxsaylı şəhərlərin hamısı müxtəlif və orijinaldır. Böyük və kiçik, qədim və cavan olmasından asılı olmayaraq hər bir şəhərin özünəməxsus tarixi, maraqlı üslubu var. Ölkəmizin iri sənaye mərkəzlərindən sayılan Sumqayıt da gənc olmasına baxmayaraq, öz tarixi və siması ilə fərqli bir şəhərdir. Bir neçə aydan sonra cəmi 70 yaşı tamam olacaq Sumqayıtın respublikamızın həyatında əlamətdar hadisələrlə dolu, qızıl hərflərlə yazılmış öz salnaməsi var.**

**Qocaman Xəzərin sahilində qərar tutan Sumqayıt bir vaxtlar "fəhlə şəhəri" kimi tanınırdısa, indi artıq ölkəmizin modern sənaye və müasir mədəniyyət mərkəzinə çevrilib.**

**Günü-gündən abadlaşan, gözəlləşən Sumqayıtda çoxlu kitabxana, muzey, mədəniyyət sarayı, park və digər istirahət məkanları fəaliyyət göstərir. Bu mədəni-maarif ocaqlarında demək olar, hər gün ədəbi-bədii görüş və gecələr, konsertlər keçirilir, tamaşalar oynanılır, sərgi və qalereyalar təşkil edilərək sumqayıtlıların asudə vaxtını yüksək səviyyədə rövnəqləndirir. Sevindiricidir ki, son dövrlər şəhərin əksər mədəniyyət obyektləri əsaslı və cari təmir edilib, onların maddi-texniki bazaları da yeniləşdirilmişdir.**

**Bu gün 70 illik yubileyi ərəfəsində Sumqayıtın mədəni həyatında baş verənlərlə, şəhər mədəniyyətinin inkişaf prosesi və tarixi ilə daha yaxından tanış olmaq üçün əməkdaşımız Sumqayıt Regional Mədəniyyət İdarəsinin rəisi Mehman Şükürovla görüşərək bu haqda daha ətraflı danışmağı xahiş etmişdir. Mehman müəllim sözünə belə başladı:**



- Ölkəmizin dünya birliyinə sürətli inteqrasiyası, regionun lider dövlətinə çevrilməsi və qlobal proseslərə təsir imkanlarının artması düzgün müəyyənləşdirilən strategiyanın nəticəsidir. Fərəhlidir ki, müstəqil dövlətimizin uğurları beynəlxalq aləmdə, ən yüksək tribunalardan da etiraf olunur.








Ötən əsrin 90-cı illərinin ortalarında Azərbaycanda siyasi sabitliyə nail olmuş ümummilli liderimiz Heydər Əliyev ölkənin dirçəlişi və inkişafı naminə seçdiyi strategiyanın ən optimal variant olduğunu bugünkü sürətlə yüksələn həyat səviyyəsi əyani şəkildə sübuta yetirir. Hazırda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin böyük əzm və qətiyyətlə davam etdirdiyi bu sosial-iqtisadi siyasət strategiyası gündəlik həyatımızda yeni-yeni nailiyyətlərə yol açır.

Xalqımızın milli-mənəvi dəyərlərinin qorunub saxlanması, mədəni irsinin yaşadılması və təbliği, eləcə də onun ümumi mədəni səviyyəsinin və dünyagörüşünün yüksəldilməsi ümdə bir məsələ olub daim Azərbaycan dövlətinin diqqət mərkəzindədir. Azərbaycan Prezidenti cənab İlham Əliyevin imzaladığı Fərman və sərəncamlarla ədəbiyyat və incəsənət xadimlərinə keçirilən yubileylər, verilən dövlət mükafatları və adları, ölkəmizin hər yerində yenicə tikilən və əsaslı təmir edilən teatr, muzey, kitabxana binaları, mədəniyyət sarayları, park və bağlar bu sahəyə günbəgün artan qayğının bariz təzahürüdür.

Ölkəmizdə bu geniş sahənin tənzimlənməsi bir çox qurumlara tapşırılsa da əsas yük Mədəniyyət Nazirliyinin və onun yerlərdəki idarə və şöbələrinin öhdəsinə düşür. Bizim idarə də həmin nazirliyin strukturu olub həmişəcavan Sumqayıtın mədəni həyatını daha maraqlı, daha məzmunlu etmək funksiyasını daşıyır və düşünürəm ki, bunu bacarıqla həyata keçirə bilir.

Bilirsiz ki, bu il Sumqayıt öz 70 illik yubileyini keçirməyə hazırlaşır. Sənaye şəhəri kimi tanınan Sumqayıt hər zaman respublikamızın mədəni mərkəzlərindən biri sayılıb. Hələ sovetlər dövründə şəhərdə çoxsaylı mədəniyyət sarayları, incəsənət mərkəzləri fəaliyyət göstərib. Burada Sumqayıtın tarixi Muzeyi və Dövlət Rəsm Qalereyası uzun illər öz ekspozisiya və sərgiləriylə sumqayıtlıların asudə həyatını maraqlı edib.

Ötən əsrin 60-70-ci illərində Sumqayıtın maraqlı mədəni mühiti olub. Burada ölkəmizin tanınmış şair və yazıçıları ilə ədəbi-bədii görüşlər keçirilmiş, klassik musiqinin dünya şöhrətli incəsənət xadimləri konsertlər vermişlər.

Elə həmin illərdə gənclərin təşəbbüsü ilə yaradılan estrada qruplarını o dövrün insanları daha yaxşı xatırlayar. Hətta bu estrada qrupları tək Sumqayıtda deyil, ölkəyə də səs saldı. Mədəniyyət müəssisələrimizdə bir sıra kollektivlər yaranmışdı. Məsələn, indiki 28 May mədəniyyət evində (o vaxt adı "Oktyabr" klubu idi) ali təhsili olmayan, lakin istedadlı gənclərdən ibarət xalq teatrı fəaliyyət göstərirdi. Gənclik klubunda kukla teatrı da fəaliyyət göstərir, uşaqlar üçün müxtəlif tamaşalar hazırlayırdı. N.Nərimanov adına mədəniyyət evində konsertlər keçirilərdi. Təsadüfi deyil ki, elə bu gün ölkənin tanınmış sənətçilərinin bir çoxu məhz o mədəniyyət müəssisələrində yetişən, püxtələşən insanlardır.

Sonra bir dönəm, yəni müstəqilliyin ilk illərində bu proses dayandı. Müharibə, problemlər insanların ümumi həyata baxışında da, əhval-ruhiyyəsində də çox ağır izlər qoydu. Ölkədəki durum mədəni həyatda da təsirsiz ötüşmədi. O adıçəkilən kollektivlərin bəziləri fəaliyyətini müvəqqəti olaraq dayandırdı, bəziləri isə tamamilə ləğv olundu. Nə rəsm sərgilərinə maraq qaldı insanlarda, nə də mütaliəyə meyil oldu... teatrda da vəziyyət eynən belə idi. Soyuq döşəmə, qaranlıq zal, ssenari kasadlığı, boş tamaşa zalı aktyorların da vəziyyətinə təsir etmişdi.

Lakin çox şükür ki, o illər artıq geridə qaldı. Ölkəmiz, eləcə də Sumqayıt iqtisadi və mədəni cəhətdən sürətlə inkişaf etməyə başladı. Bu şəhərdə tək sənaye obyektləri tikilmədi, eyni zamanda kitabxana, muzeyin binası əsaslı təmir olundu, kitab və muzey fondu zənginləşdi, Nəsimi parkında yaşıl teatr salındı. Oxucu və ziyarətçi kasadlığına qismən də olsa son qoyuldu.

Sumqayıt şəhəri son illərdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə həyata keçirilən bir sıra irimiqyaslı layihələrin reallaşması nəticəsində yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Arxada qoyduğumuz illər şəhərimizin tarixində əlamətdar hadisələr kimi yadda qalmışdır. Ümummilli liderin adını daşıyan park-kompleksin ərazisində 5 min kvadratmetr olan 4 mərtəbəli Heydər Əliyev Mərkəzi, 2500 kvadratmetr sahəsi olan Uşaq İncəsənət Məktəbi, 1500 kvadratmetr sahəsi olan ikimərtəbəli Şahmat məktəbinin inşası, ümumi sahəsi 106 hektar, uzunluğu 4 kilometrdən artıq olan cənab Prezidentin "möcüzə" adlandırdığı, füsunkar bulvar kompleksi və gözoxşayan xiyabanlar buna canlı misaldır.

Nəsimi adına Dənizkənarı Mədəniyyət və İstirahət Parkının əsas hissələrindən birini təşkil edən Sumqayıt Bulvarında nadir ağac növləri və bitkilər əkilib, müasir işıqlandırma sistemi quraşdırılıb. Həmçinin burada istirahət obyektləri, attraksionlar, fəvvarə kompleksi, Bayraq Meydanı inşa edilmişdir.

O cümlədən, şəhərimizdə turistlərin bütün ehtiyaclarını qarşılayacaq, yüksək standartlara cavab verən iki hotel tikilib istifadəyə verilmişdir.

Yeniləşən, gözəlləşən həm də təkcə Sumqayıtın siması deyil, onun ictimai, mədəni həyatıdır. Cənab Prezidentin təbirincə desək, Sumqayıtın zəngin mədəni həyatı var. Bu gün şəhərimizdə müasir standartlara cavab verən mədəniyyət məbədi - Sumqayıt Dövlət Dram Teatrı yüksək zövq və estetik baxımdan çox nəfis şəkildə əsaslı təmir edilmiş və yenidən qurulmuşdur.

Teatrın əsaslı təmirindən sonra 50 illik yubiley tədbirində göstərilən tamaşa və Azərbaycan Respublikasının Mədəniyyət nazirinin bu tədbirdə iştirakı şəhərimizdə əsl mədəniyyət bayramına çevrilmişdir. Sevindirici haldır ki, teatrın səhnəsində göstərilən tamaşalarda artıq ölkənin mədəniyyət aləmində tanınmış simalar, görkəmli aktyorlar rol alır.

Yeni tikilən, memarlıq baxımından əzəməti ilə gözoxşayan Heydər Əliyev Mərkəzi üç mərtəbədən və mansardan ibarətdir. Mərkəzdə müxtəlif tədbirlərin keçirilməsi üçün konfrans, sərgi, iclas zalları, rəsm və fotostudiyaları, elektron kitabxana və s. yaradılmışdır. Xüsusi dizaynla tərtib edilmiş mərkəz müasir inventar və avadanlıqlarla tam təmin edilmişdir. Mərkəzdə müxtəlif sahələri əhatə edən dərnəklər fəaliyyət göstərir.

Heydər Əliyev Mərkəzinin əvvəlki binası isə yenidən qurularaq Əli Kərim adına Poeziya Klubunun istifadəsinə verildiyi vaxtdan etibarən poeziya evində silsilə tədbirlər, yazarların imza günü, Anar başda olmaqla ölkənin tanınmış qələm sahiblərinin, yazıçıların, şairlərin, jurnalistlərin, oxucularla, məşhur sənətçilərin şəhər ictimaiyyəti ilə bir-birindən maraqlı görüşləri keçirilmişdir.

S.Rüstəmov adına uşaq incəsənət məktəbi üçün yüksək zövqlə tikilən 4 mərtəbəli binada 46 sinif otağı, akt zalı, rəqs və rəsm otaqları, musiqi alətlərinin satışı mağazası və digər yardımçı otaqlar yaradılmışdır. Məktəb musiqi alətləri ilə, kompüter və digər lazımi avadanlıqlarla tam təchiz olunmuşdur.

Məktəbin əvvəlki binası təmir edilərək 4 saylı Diyarşünaslıq klubunun istifadəsinə verilmişdir. İstedadlı gənclərə xidmət edən səsyazma studiyası, uşaqların asudə vaxtının maraqlı təşkil olunması üçün "Günəşim" kukla teatrı, şəhərimizdə ilk dəfə fəaliyyətə başlayan "Ebru sənəti" kursları şəhər sakinləri tərəfindən də maraqla qarşılanır.

Bundan başqa, uzun illərdir zəbt olunmuş və istifadəyə yararsız hala düşmüş Nizami kinoteatrının ərazisi obrazlı şəkildə desək, "mühasirədən azad olmuş" və abadlaşdırılaraq şəhər sakinlərinin ixtiyarına verilmiş, Nizami kinoteatrı isə yenidən inşa olunur.

Keçən il ilk dəfə yeni formatda keçirilən bayraq günü bayramı öz möhtəşəmliyi və kütləviliyi ilə gənclərin vətənpərvərlik hisslərinin yüksək səviyyəsinin ölçü meyarı kimi çox diqqət çəkmişdir.

Eləcə də, II Azərbaycan Elm Festivalının Sumqayıt şəhərində açılış mərasiminin çox yüksək səviyyədə təşkili və keçirilməsi diqqət çəkmişdir.

Son aylarda şəhərimizdə beynəlxalq mədəni əlaqələr çərçivəsində də bir sıra tədbirlər baş tutmuşdur. Buna Sumqayıtla Almaniyanın Lüdviqshafen şəhəri arasında dostluğun 30, tərəfdaşlıq əlaqələrinin yaradılmasının isə 40 illiyi münasibətilə keçirilən tədbirləri, Azərbaycan Respublikası ilə Hindistan arasında diplomatik münasibətlərin 25 illiyi münasibətilə keçirilən silsilə tədbirlər çərçivəsində Hindistanın Azərbaycandakı səfirliyinin təşəbbüsü və Sumqayıt Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə Sumqayıt Dövlət Dram Teatrında Hindistan incəsənət ustalarının ifasında maraqlı "Möhtəşəm Hindistan toyu" rəqs tamaşasını misal göstərə bilərik.

İcra başçısı Zakir Fərəcovun sərəncamı ilə şəhərdə abadlıq işləri vüsət almaqdadır. Geniş küçələr salınır, park və xiyabanlar yaradılır, on minlərlə ağac və gül kolu əkilir, bir-birindən gözəl fəvvarələr quraşdırılır. Uşaqlar üçün əyləncə kompleksləri yaradılır, küçələrimizi, parklarımızı nağıl qəhrəmanlarının heykəlləri, müxtəlif dekorativ sənət əsərləri bəzəyir.

Artıq mədəniyyət işçiləri öz tədbirlərini bulvarda, Yaşıl teatrda, şəhər parkında, gözoxşayan xiyabanlarda da gerçəkləşdirirlər.

Sumqayıt, sözün əsl mənasında, yenidən dirçəlmiş, şəhərin qaynar mədəni həyatı sakinlərə də sirayət etmişdir. Bu səbəbdəndir ki, uşaqlar üçün davamlı olaraq keçirilən kukla tamaşaları, "Dostluq" mədəniyyət evində fəaliyyət göstərən, gənclərdən və uşaqlardan ibarət "Səmt" və "Start" estrada qruplarının canlı konsertləri, 28 May Diyarşünaslıq evində fəaliyyət göstərən Xalq Teatrının kollektivlərinin tamaşaları, Sumqayıtın yetirməsi olan tanınmış sənətçilərin şəhərimizdə konsertləri, Sumqayıt Dövlət Rəsm Qalereyasının təşkil etdiyi bir-birindən maraqlı rəsm sərgiləri, şəhər kitabxanalarının təşkil etdikləri Kitab bayramları, söz bayramı, şair və yazıçılarla maraqlı görüşlər sakinlərin həm mütaliəyə, həm sənətə, həm də ümumilikdə mədəniyyət sahəsinə olan marağını daha da artırmışdır.

Şəhərimizdə ilk dəfə olaraq Sumqayıt şəhər F.Əmirov adına Uşaq Musiqi Məktəbinin bazasında "Buta" qızlar ansamblı yaradılmışdır. Kollektivin tək Sumqayıtda deyil, bölgələrimizdə də konserti böyük maraqla qarşılanmışdır.

Bu günə qədər Sumqayıtın vahid xor kollektivi və orkestri yox idisə də, artıq o problem də öz həllini tapmışdır. Belə ki, Sumqayıt şəhərində fəaliyyət göstərən musiqi və incəsənət məktəblərinin müəllimlərdən ibarət Xalq Çalğı Alətləri Orkestri və Xor kollektivi Sumqayıt Regional Mədəniyyət İdarəsinin bazasında yaranmış və təqdimatı keçirilmişdir. Kollektivin təqdimat mərasiminə təbrik üçün ölkənin tanınmış sənətkarları: Respublikanın Xalq artisti Alim Qasımov, Respublikanın Əməkdar artistləri Fərqanə Qasımova, Təyyar Bayramov, Ehtiram Hüseynov qatılaraq səhnədə gənc ifaçılarla birgə çıxış etmişlər. Konsert şəhər ictimaiyyəti tərəfindən böyük coşqu ilə qarşılanmışdır.

Ölkə Prezidentinin sərəncamına əsasən ümummilli lider Heydər Əliyevin 95, Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi münasibətilə Sumqayıt şəhərində, Abşeron rayonunda, Qubadlı və Zəngilan nümayəndəliklərində keçirilən Xalq Çalğı Alətləri Orkestri və Xor kollektivinin, Xızı və İsmayıllı rayonlarında "Buta" qızlar ansamblının baş tutan konsertləri öz möhtəşəmliyi ilə seçilmiş və ictimaiyyət tərəfindən böyük maraq və alqışlarla qarşılanmışdır.

Aprel şəhidlərinin ildönümü münasibətilə dövlət səviyyəsində tədbirlər keçirilib. Biz bu işdə də şəhidlərimiz qarşısında öz borcumuzu yerinə yetirmək istədik. Və bizim təşəbbüsümüzlə şəhidlərimizdən biri, aprel döyüşlərində qəhrəmancasına şəhid olmuş Əbdülməcid Axundovun xatirəsinə həsr olunmuş "Mən səninləyəm ana vətən" adlı bədii-sənədli film çəkilmiş, Sumqayıt Dövlət Dram Teatrında, Bakı şəhər Nizami Kino Mərkəzində təqdimatı keçirilmişdir.

Sumqayıt Regional Mədəniyyət İdarəsinin kollektivi hərbi hamilik məqsədilə hərbi hissələrdə əlamətdar və tarixi günlər münasibətilə tədbirlər keçirmiş, əsgərlərimizin qarşısında silsilə konsert proqramları ilə çıxış etmişdir.

Şəhərimizdə keçirilən mədəniyyət günləri, Beynəlxalq mədəni əlaqələr çərçivəsində keçirilən konsertlərdə də kollektivlərimiz böyük həvəslə iştirak etmiş, istedadlarını nümayiş etdirmişlər.

Bir sıra beynəlxalq və ölkə əhəmiyyətli müsabiqə və festivallarda Sumqayıt şəhər uşaq incəsənət və musiqi məktəblərinin yetirmələri uğurla çıxış etmiş, diplom və fəxri fərmanlarla mükafatlandırılmışlar.

Sumqayıt şəhər N.Nərimanov adına Mədəniyyət Mərkəzinin "Rövşən" ritm qrupunun Rusiyada, "Pöhrə Aşıqlar qrupu" və "Muğam-Segah üçlüyü"nün Türkiyədə uğurlu çıxışları bizə böyük sevinc və fərəh hissləri yaşatmışdır.

Son olaraq bildiririk ki, cənab Prezident Sumqayıta, sumqayıtlılara və şəhərin rəhbəri Zakir Fərəcovun fəaliyyətinə yüksək qiymət verərək "Bu gün Sumqayıtla fəxr etməyə bütün əsaslar var" demişdir. Bu etimadı doğrultmaq və daha böyük nailiyyətlər əldə etmək məqsədilə biz davamlı olaraq çalışırıq və çalışacağıq.

**Söhrab SƏFİYEV,**
**"Respublika".**







# Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəhbərliyi İmişli və Ağcabədidə vətəndaşları qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına və mərkəzi icra hakimiyyəti orqanlarının, digər qurumların rəhbərlərinin və onların müavinlərinin 2019-cu ilin iyulunda şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin (SHXÇDX) rəisi, general-leytenant Arzu Rəhimov iyulun 18-də İmişlidə Beyləqan, İmişli və Füzuli rayonlarından olan vətəndaşların qəbulunu keçirib.**



AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, qəbuldan əvvəl Xidmət rəisi, general-leytenant Arzu Rəhimov və İmişli Rayon İcra Hakimiyyətinin başçısının müavini Səfa Ağayev ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyublar.

Qəbul zamanı hər bir vətəndaşın müraciət və təklifi diqqətlə dinlənilib.

Xidmət rəisi tərəfindən qəbul edilən vətəndaşların müraciətlərinin bir çoxu yerindəcə həllini tapıb. Araşdırılmasına ehtiyac olan məsələlər qanunvericiliyə uyğun qaydada tədbirlər görülməsi üçün qeydiyyata alınıb.

Həmin gün, həmçinin Xidmət rəisinin müavini, general-mayor Mayıl Şahverdiyev Ağcabədidə Ağdam və Ağcabədi vətəndaşlarını qəbul edib.

Xidmət rəhbərliyinin keçirdiyi qəbullarda 30 vətəndaşın müraciəti dinlənilib. Müraciətlər əsasən həqiqi hərbi xidmətə və ya işə qəbul, övladlarının gələcək müddətli həqiqi hərbi xidmət yerinin müəyyənləşdirilməsi, müddətli həqiqi hərbi xidmətə cəlb edilmə, veteran adının və vəsiqəsinin verilməsi, eləcə də digər məsələlərlə bağlı olub.

Bəzi vətəndaşlar tərəfindən qaldırılan və Xidmətin səlahiyyətlərinə aid olmayan müraciətlər isə aidiyyəti orqanlara çatdırılması üçün qeydiyyata alınıb.

Bölgə sakinlərinin yerlərdə qəbulu və müraciətlərinə baxılması üçün daha rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edən vətəndaşlar göstərilən diqqət və qayğıya görə dövlətimizin başçısına minnətdarlıqlarını bildiriblər.

**AZƏRTAC**

# Dövlət Sərhəd Xidmətinin rəisi sərhəd döyüş məntəqəsinin şəxsi heyəti ilə görüşmüşdür

**18 iyul 2019-cu il tarixdə saat 00:20 radələrində Ermənistan Silahlı Qüvvələrinin bölmələri tərəfindən Ermənistanın Noyemberyan rayonunun Zorakan kəndi istiqamətindən iri çaplı silahlardan atəş açılmaqla atəşkəs rejimi pozulmuş, Qazax rayonunun II Şıxlı kəndi yaxınlığındakı sərhəd döyüş məntəqəsinin mövqeləri atəşə tutulmuşdur. Cavab atəşi ilə düşmən susdurulmuşdur.**



Hadisə zamanı Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Qazax" sərhəd dəstəsinin sərhəd döyüş məntəqəsində döyüş növbəsində xidmət aparan əsgər Ceyhun Bayramov yaralanmışdır. Sərhədçi əsgərə dərhal təxirəsalınmaz tibbi yardım göstərilmişdir və hazırda həyatı üçün təhlükə yoxdur.

Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyev hadisə yerində olmuş, sərhəd döyüş məntəqəsinin şəxsi heyəti ilə görüşmüş, xidməti-döyüş fəaliyyətinin daha da gücləndirilməsi istiqamətində müvafiq tapşırıqlar vermişdir.

**Dövlət Sərhəd Xidmətinin mətbuat mərkəzi.**

# ADNSU-da Milli Mətbuat Günü qeyd olunub

**Dünən Azərbaycan Dövlət Neft və Sənaye Universitetində (ADNSU) Milli Mətbuat Günü münasibətilə jurnalistlərlə görüş keçirilib. Görüşdə ADNSU-nun rektoru, professor Mustafa Babanlı Milli Mətbuat Günü münasibətilə jurnalistləri təbrik edərək, media nümayəndələrini universitetdə görməkdən məmnun olduğunu bildirib.**





Kütləvi informasiya vasitələrinin (KİV) nümayəndələrinə ADNSU-da görülən işlərdən, elm və təhsildə həyata keçirilən islahatlardan, həmçinin qazanılan nailiyyətlərdən və gerçəkləşdirilən layihələrdən söz açan rektor, professor M.Babanlı görülən bütün bu işlərin cəmiyyətə çatdırılmasında medianın böyük rolu olduğunu qeyd edib. ADNSU-da yaradılan şəffaf tədris mühiti barədə danışan rektor bu istiqamətdə aparılan işlərdə medianın hər zaman universitetə dəstək olduğunu vurğulayıb.

Tədbirdə iştirak edən media nümayəndələri də öz növbəsində rektor M.Babanlıya Milli Mətbuat Günü münasibətilə təşkil olunmuş görüşə görə təşəkkürlərini bildiriblər. Onlar ADNSU-da görülən işlər və aparılan islahatların universitetin keçmiş nüfuzunu bərpa etdiyini və cəmiyyətdə olduqca müsbət imicinin formalaşdırıldığını qeyd ediblər. Media nümayəndələri ADNSU-nun fəaliyyətinin cəmiyyətə çatdırılmasında hər zaman yaxından iştirak etməyə hazır olduqlarını vurğulayıb və universitetlə media arasındakı əlaqələrin əhəmiyyətindən danışıblar.

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**

# Bakı Şəhər Prokurorluğunda geniş əməliyyat müşavirəsi keçirilib

**İyulun 18-də Bakı Şəhər Prokurorluğunda mərkəzi aparatın və ərazi rayon prokurorluqları əməkdaşlarının iştirakı ilə 2019-cu ilin birinci yarımilində qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsi, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının qorunması sahəsində görülmüş işlərin vəziyyəti və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş geniş əməliyyat müşavirəsi keçirilib.**



Bakı Şəhər Prokurorluğunun AZƏRTAC-a daxil olan məlumatında bildirilir ki, müşavirədə məruzə ilə çıxış edən Bakı şəhər prokuroru İlqar Abbasov hesabat dövründə şəhərin prokurorluq orqanlarının cinayətkarlığa və hüquq pozuntularına qarşı mübarizə sahəsində digər hüquq-mühafizə orqanları ilə əlaqəli şəkildə fəaliyyət göstərərək müəyyən nəticələr əldə etdiyini söyləyib.

Qeyd olunub ki, 2018-ci ilin birinci yarımilində şəhər ərazisində prokurorluq və polis orqanları üzrə 5678 hadisə qeydə alındığı halda, 2019-cu ilin birinci yarısında 182 hadisə, yəni 3,2 faiz azalaraq 5496 hadisə olub. Qeydə alınmış cinayətlərin açılma faizi 6,7 faiz azalaraq 75,4 faiz, ağır və ya xüsusilə ağır cinayətlərin sayı 37 hadisə və ya 5,6 faiz artaraq 695 olub.

Cari ilin birinci yarısında qeydə alınmış 37 qəsdən adamöldürmə cinayətinin 36-sı, 19 qəsdən adam öldürməyə cəhd cinayətinin isə hamısının açılması təmin edilib. Hesabat dövründə 28 quldurluq və ölümlə nəticələnən 103 yol-nəqliyyat hadisəsi qeydə alınıb. Quldurluq hadisələrindən 7-si, yol-nəqliyyat hadisələrindən isə 5-i bağlı qalıb.

Bu ilin birinci yarısında şəhərin prokurorluq və daxili işlər orqanları tərəfindən istintaq edilmiş işlərin təhlili göstərir ki, prokurorluqda icraatda olan 590 işdən 252-si, daxili işlər orqanlarının istintaq aparatlarının icraatında olan 6680 cinayət işindən 2183-nün istintaqı tamamlanıb.

Hesabat dövründə törədilmiş cinayətlər nəticəsində prokurorluqda, o cümlədən Bakı Şəhər Prokurorluğunun İstintaq idarəsində aparılan cinayət işləri üzrə fiziki və hüquqi şəxslərə vurulmuş 7 milyon 579 min 457 manat maddi ziyandan 43,8 faizi, yəni 3 milyon 316 min 706 manatı, polis orqanlarında aparılan işlər üzrə isə vurulmuş 19 milyon 337 min 628 manat maddi ziyandan 92 faizi, 17 milyon 772 min 953 manatı istintaq zamanı ödətdirilib.

Müşavirədə qeyd olunub ki, vətəndaşların müraciətlərinə xüsusi diqqət və həssaslıqla yanaşılmasının hər bir dövlət orqanının və məmurunun mühüm vəzifələrindən olması barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin göstəriş və tövsiyələri rəhbər tutularaq müraciətlərin obyektiv və vaxtında araşdırılması, müəyyən olunmuş cədvəl əsasında Bakı şəhər, rayon prokurorluqlarında, eləcə də yaşayış yerlərində vətəndaşların qəbullarının keçirilməsi daim diqqət mərkəzində saxlanılıb. Şikayətləri doğuran səbəb və halların aradan qaldırılmasına, qanunvericiliyin tələblərinə uyğun olaraq ədalətli qərarların qəbul edilməsinə nəzarət və tələbkarlıq artırılıb.

Hesabat dövründə şəhər prokurorluq orqanlarına 8030 müraciət daxil olub. Onlardan 2586-sı həll edilib, 877 müraciət təmin olunub. Cari ilin birinci yarımili ərzində 3997 vətəndaş qəbul edilib.

Əməliyyat müşavirəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 2019-cu il 3 aprel tarixli Fərmanda prokurorluq orqanlarına verilmiş tövsiyələrin yerinə yetirilməsi istiqamətində işlərin uğurla davam etdirildiyi vurğulanıb.

Hesabat dövründə əldə edilmiş müsbət nəticələrlə yanaşı, nöqsanlar da diqqətə çatdırılıb. Bağlı qalmış qəsdən adamöldürmə, quldurluq, oğurluq və yol nəqliyyat hadisələrinin tezliklə açılması və təqsirkar şəxslərin müəyyənləşdirilərək məsuliyyətə cəlb edilməsi, habelə axtarışda olan, xəbərsiz itkin düşmüş şəxslərin tapılması istiqamətində intensiv istintaq və əməliyyat-axtarış tədbirlərinin keçirilməsinin, istintaq işi və ibtidai araşdırmaya prosessual rəhbərliyin həyata keçirilməsində, cinayət nəticəsində vurulmuş ziyanın istintaq zamanı ödətdirilməsi sahəsində yol verilən nöqsanların aradan qaldırılmasının zəruriliyi vurğulanıb. İstintaq və təhqiqat fəaliyyətində aşkar edilmiş nöqsanlar, qanun pozuntuları və süründürməçilik hallarının gələcəkdə təkrarlanmaması məqsədi ilə ətraflı müzakirə edilərək nöqsanların aradan qaldırılması istiqamətində konkret tapşırıqlar verilib.

Müşavirədə, həmçinin qeyd olunub ki, ciddi tələbkarlıq və prinsipiallıq şəraitinin yaradılmasına baxmayaraq, hesabat dövründə müxtəlif xətalar törətdiklərinə görə dörd prokurorluq əməkdaşı intizam məsuliyyətinə cəlb edilib. Onlardan üç nəfərə töhmət, bir nəfərə isə şiddətli töhmət elan edilib.

Tələb olunub ki, prokurorluq əməkdaşlarının dövlətimizin başçısı İlham Əliyevin dövlət qulluqçularının xidməti və xidmətdən kənar məmur-vətəndaş münasibətlərini müəyyən edən proqram xarakterli çıxışlarından ciddi nəticə çıxarılması, eləcə də xidməti, icra və əmək intizamının möhkəmləndirilməsi, tapşırılan işə görə əməkdaşların məsuliyyət hissinin və neqativ təzahürlərə münasibətdə prinsipiallığının artırılması üçün ən qəti tədbirlər görülsün.

Əməliyyat müşavirəsində Bakı şəhər prokurorunun müavini Azər Əsgərov və rayon prokurorları hesabat dövründə prokurorluq orqanlarında cinayətkarlığa qarşı mübarizə, istintaq işi və ibtidai araşdırmaya prosessual rəhbərliyin təşkili sahəsində görülmüş işlər, yol verilmiş nöqsanlar və qarşıda duran vəzifələr barədə ətraflı məlumat veriblər.

Yekunda şəhər prokuroru İlqar Abbasov hər bir prokurorluq əməkdaşının prokurorluq orqanlarına dövlət səviyyəsində göstərilən böyük etimadı doğruldacağına, insan və vətəndaş hüquq və azadlıqlarının təmin olunması, cinayətkarlığa qarşı mübarizə, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi sahəsində öz qulluq və vəzifə borclarını layiqincə yerinə yetirəcəklərinə əminliyini ifadə edib.

**AZƏRTAC**

# Prezident Administrasiyasının məsul işçiləri bölgələrdə vətəndaşların müraciətlərini dinləyiblər

**Azərbaycan Respublikası Prezidenti Administrasiyasının məsul işçiləri vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, iyulun 18-də Sabirabad, Tərtər, Zəngilan rayonlarının sakinləri ilə görüşüblər.**

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyevin tapşırığına əsasən keçirilən görüşlərdə sakinlərin qaldırdıqları məsələlər diqqətlə dinlənilib. Vətəndaşlar tərəfindən qaldırılan məsələlərin bir qismi yerində həll olunub, digər müraciətlər isə operativ araşdırılması və qanunvericiliyə uyğun həlli üçün nəzarətə götürülüb.

Görüşlərdə qeyd olunub ki, Prezident İlham Əliyevin regionların sosial-iqtisadi inkişafına göstərdiyi diqqət və qayğı nəticəsində respublikamızda müasir infrastruktur, istehsal və emal müəssisələri yaradılır, yeni iş yerləri açılır. Bütün bunlar, ilk növbədə, əhalinin sosial rifah halının daha da yaxşılaşdırılmasına yönəlib. Dövlətimizin başçısının da qeyd etdiyi kimi, yürüdülən siyasətin təməlində Azərbaycan vətəndaşı, onun rifah halının yaxşılaşdırılması dayanır. Son vaxtlar imzalanan fərman və sərəncamlar, sosial-iqtisadi sahədə aparılan islahatlar Prezident İlham Əliyevin əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində həyata keçirdiyi tədbirlərin davamıdır.

Keçirilən görüşlərdə, həmçinin məmur-vətəndaş münasibətlərinin sağlam zəmində qurulması, insanlara layiqli xidmət göstərilməsi, etik davranış qaydalarına əməl olunmasının vacibliyi bir daha vurğulanıb.

Sakinlər bölgələrdə vətəndaşların qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edərək, göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

**AZƏRTAC**

# Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar nazirinin birinci müavini Göygöldə vətəndaşlarla görüşüb

**İyulun 18-də Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar nazirinin birinci müavini Əli Abdullayev Göygöl rayonunda vətəndaşları qəbul edib.**

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, mərkəzi icra hakimiyyəti orqanlarının, digər qurumların rəhbərlərinin və onların müavinlərinin şəhər və rayonlarda 2019-cu ilin iyul ayında vətəndaşların qəbulu cədvəlinə əsasən təşkil olunan görüşdə Göygöl sakinlərinin nəqliyyat, telekommunikasiya, poçt xidmətləri və digər məsələlərlə bağlı müraciətlərinə baxılıb.

Bir sıra vətəndaş müraciətləri yerindəcə öz müsbət həllini tapıb. Araşdırılması tələb olunan müraciətlərin mövcud qanunvericiliyin tələblərinə uyğun olaraq həlli ilə əlaqədar nazirliyin müvafiq qurumlarının rəhbərlərinə tapşırıqlar verilib.

Eyni zamanda, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin fəaliyyət sahələrinə aid olmayan müraciətlər müvafiq qurumlara ünvanlanması üçün qeydiyyata alınıb.

**AZƏRTAC**

# TRANSMİLLİ LAYİHƏLƏR AZƏRBAYCANI İNKİŞAF ETMİŞ ÖLKƏYƏ ÇEVİRİR

## *Ölkəmizin iqtisadi qüdrəti ilbəil artır, siyasi nüfuzu güclənir və beynəlxalq mövqeləri möhkəmlənir*

**(əvvəli 1-ci səhifədə)**

Vurğulamaq lazımdır ki, ümummilli liderin təməlini qoyduğu bu transkontinentel layihələrin, onların qollarının və Mərkəzi qovşağının reallaşmasında Heydər Əliyev siyasətinə ən sadiq, bu strategiyanın ən layiqli davamçısı Azərbaycan Prezidenti İlham Əliyevin müstəsna xidməti vardır və bu proses getdikcə genişlənir. 2007-ci il fevralın 7-də Tbilisidə dövlət başçımızın təşəbbüsü ilə Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisinə dair Saziş imzalanıb. Həmin ilin noyabrında Gürcüstanın Marabda məntəqəsində dəmir yolu xəttinin, 2008-ci ilin iyulunda isə Qars şəhərində Qars-Gürcüstan sərhədi hissəsinin tikintisinin təməlləri qoyulub. Ümumi uzunluğu təxminən 850 kilometr olan Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin 504 kilometrlik hissəsi Azərbaycanın ərazisinə düşür, 263 kilometri Gürcüstan, 79 kilometri isə Türkiyə ərazisindən keçir. 2015-ci il dekabr ayında ölkə başçımızın Çinə dövlət səfəri çərçivəsində "İpək Yolu İqtisadi Kəməri"nin yaradılmasının birgə təşviq edilməsi barədə Azərbaycan Respublikası Hökuməti ilə Çin Xalq Respublikası Hökuməti arasında qarşılıqlı anlaşma memorandumu imzalandı. Beləliklə, Bakı-Tbilisi-Qars dəmir yolu Avropa ilə Asiyanı birləşdirən nəqliyyat dəhlizi inşasında çox mühüm yer aldı.

Azərbaycanda real iqtisadiyyatın sahələri davamlı inkişaf yolundadır və müasir səmərəli layihələrin reallaşmasının sayı da durmadan artır. İqtisadiyyatın şaxələndirilməsi, təsərrüfat sahələrinin davamlı inkişafı daxili bazarın təminini yüksəltməklə yanaşı, güclü ixrac potensialının yaranmasını, ölkə iqtisadiyyatının beynəlxalq iqtisadi dövriyyəyə ilbəil daha çox məhsul çeşidlərilə qoşulmasını və müvafiq sahələrin də tərəqqisini təmin edir. Bununla bərabər, daim güclənən beynəlxalq əməkdaşlıq bölgədə sülhün, sabitliyin qorunmasına mühüm töhfə verdiyini və böyük dərəcədə zəruri olduğunu da sübut etmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının yekunlarına həsr olunan konfransdakı nitqində ölkəmizdə aparılan islahatların dünyanın müvafiq nüfuzlu qurumları tərəfindən diqqətlə izlənildiyi və qiymətləndirmələrində irəliləyiş barədə vurğulayıb: "Bir faktı da diqqətinizə çatdırmaq istəyirəm. İlk dəfə Azərbaycan Dünya Bankının "Doing Business" hesabatında 2006-cı ildə qeyd olundu və o vaxt Azərbaycan 98-ci yerdə qərarlaşdı. Aparılan köklü islahatlar, investisiya iqliminin yaxşılaşdırılması nəticəsində son hesabatda Azərbaycan dünya miqyasında 25-ci yerdədir. Yəni bu, deməyə əsas verir ki, bundan sonra da həm daxili, həm xarici investorlar Azərbaycana böyük həcmdə sərmayə qoyacaqlar. Beləliklə, bu sərmayə imkan verəcək ki, bundan sonra da iş yerləri, yeni müəssisələr yaradılsın və ölkəmiz inamla inkişaf etsin". Davos Dünya İqtisadi Forumu isə Azərbaycanı rəqabət qabiliyyətliliyinə görə 35-ci yerə layiq görmüşdür. Bu, davamlı innovativ inkişafın bəhrəsidir. Ölkəmizin maliyyə vəziyyəti çox sabitdir, yəni bu gün Azərbaycan 50 milyarda yaxın ABŞ dolları həcmində strateji maliyyə vəsaitinə malikdir. Bu da dövlətin iqtisadi və maliyyə vəziyyətinin müstəqilliyini şərtləndirən əsas amillərdən biridir. Bu resursları heç bir ölkədən kömək almayan dövlət özü yaradıb. Təbii ki, Azərbaycan xalqının dəstəyi və ölkə başçısının düşünülmüş siyasətilə.

Azərbaycan həm ikitərəfli müstəvidə, həm regional, həm də çoxtərəfli formatda uğurlu xarici siyasət aparır. Beynəlxalq təşkilatlarla əlaqələri artıq oturuşmuş əlaqələrdir, qarşılıqlı hörmət, inam və maraqlar üzərində qurulmuş münasibətlər olduğu da özünü təsdiq etməkdədir. Hazırda çoxşaxəli iqtisadiyyatın hər bir sahəsinin müasir davamlı tərəqqisi üçün də çox möhkəm zəmin vardır. Dövlət başçısı İlham Əliyev ölkədə aparılan iqtisadi siyasətin hədəfi barədə dəfələrlə deyib ki, "Bizim məqsədimiz inkişaf etmiş ölkəyə çevrilməkdir. Bizim sabit sosial siyasətimiz, təbii sərvətlərimiz, müasir infrastrukturlarımız, əlverişli coğrafi mövqeyimiz, peşəkar insanlarımız və savadlı gənclərimiz vardır. Buna görə də bizim inkişaf etmiş ölkəyə çevrilmək imkanlarından istifadə etməməyə haqqımız yoxdur... Biz qarşıya qoyduğumuz məqsədləri və onlara necə nail olmağı bilirik".

**Ataş CƏBRAYILOV,**
**"Respublika".**

# Gəncədə "Qahirə+25" konfransına hazırlıq



**Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili BMT-nin Əhali Fondu ilə birlikdə Gəncə şəhərində Ümumdünya Əhali Gününə həsr edilmiş regional konfrans təşkil edib. Konfransda Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (Ombudsman) Elmira Süleymanova, Gəncə Şəhər İcra Hakimiyyəti başçısının birinci müavini Elnur Rzayev, Millət vəkili İlham Məmmədov və başqaları iştirak ediblər. Öncə konfrans iştirakçıları ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək xatirəsini yad ediblər. Sonra qonaqlar tədbirin keçirildiyi Heydər Əliyev Mərkəzi və Muzeyi ilə tanış olublar.**

Tədbiri giriş sözü ilə açan Gəncə Şəhər İcra Hakimiyyəti başçısının birinci müavini Elnur Rzayev bildirib ki, bu gün Azərbaycan dövlətinin sosial sahədə atdığı addımlar öz miqyasına, təsir dairəsinə, əhəmiyyətinə görə heç bir ölkədə müşahidə olunmur. Bu, ilk növbədə cənab Prezidentin, dövlətin öz vətəndaşına olan diqqət və qayğısının təzahürüdür. O vurğulayıb ki, Azərbaycanın sürətli inkişafı bölgələri də əhatə edir. Prezident İlham Əliyevin qayğısından güc alan, inkişaf edən, gözəlləşən Gəncə yeni uğurlara imza atır. Bu, şəhərin sosial-iqtisadi həyatının bütün sahələrində müşahidə olunur. Elnur Rzayev qeyd edib ki, insanların məişəti, ailə qayğıları, yoxsulluğun aradan qaldırılması, gender bərabərliyi, insan hüquqlarının qorunması ən ümdə məsələlərdən biridir. Azərbaycanın ikinci böyük şəhəri olan Gəncədə də əhalinin qarşılaşdığı problemlərin həlli, müraciətlərinə operativ cavab verilməsi diqqət mərkəzindədir.

Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (Ombudsman) Elmira Süleymanova məruzə ilə çıxış edərək Ümumdünya Əhali Gününün yaranma tarixi, ilk dəfə olaraq 1990-cı ildə qeyd edilən bu günün əsas məqsədinin dünya əhalisinin bərabərlik, sağlamlıq, yoxsulluq, insan hüquqları və digər əhəmiyyətli məsələlər üzrə məlumatlılıq səviyyələrinin artırılması, onların problemlərinə xüsusi diqqət ayırmaqla bir çox istiqamətlərdə köklü irəliləyişlərə nail olmaqdan ibarət olduğu haqqında danışıb. O bildirib ki, konfransın keçirilməsində məqsəd ölkəmizdə "Qahirə+25" konfransına hazırlıq kampaniyasının başlanmasının elan olunması, bu prosesdə respublikamızın iqtisadi və sosial inkişafı, əhalinin problemlərinin həllində, habelə insan hüquqları sahəsində əldə etdiyi uğurlara əsaslanaraq insan hüquqları üzrə Milli Fəaliyyət Proqramı və Dayanıqlı İnkişaf Məqsədləri nəzərə alınmaqla vəziyyətin daha da təkmilləşdirilməsi üzrə tövsiyələrin müzakirə olunmasıdır.

Konfransda Gəncə şəhəri ilə yanaşı ətraf rayonların icra hakimiyyəti orqanlarının, təhsil və səhiyyə şöbələrinin rəhbərliyi, icmaların nümayəndələri, geniş ictimaiyyət, fəal qadınlar, sahibkarlar və gənclər iştirak ediblər. Çıxışlarda Qahirə Konfransının vacib məsələlərindən olan gender bərabərliyinə nail olunması məsələsinə toxunulub, keyfiyyətli səhiyyə xidmətlərinin əhali üçün əlçatanlığının təmin olunması, reproduktiv sağlamlıq və ailə planlaşdırılması üzrə ölkəmizdə mütəmadi tibbi müayinələrin həyata keçirildiyi vurğulanıb.

Sonda müzakirələr aparılıb və iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

**Zabit XƏLİLOV,**
**"Respublika".**

# Azərbaycan Silahlı Qüvvələri sıralarından ehtiyata buraxılan gənclərlə Lerikdə görüş keçirilib





**İyulun 17-də Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin (SHXÇDX) Lerik rayon şöbəsinin təşkilatçılığı, rayon icra hakimiyyətinin, ehtiyata buraxılmış gənclərin valideynlərinin, veteranların və ictimaiyyət nümayəndələrinin iştirakı ilə Silahlı Qüvvələr sıralarından ehtiyata buraxılmış hərbi vəzifəlilərin qarşılanma mərasimi keçirilib.**

Tədbirin iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyaraq, xatirəsini yad ediblər.

Mərasimdə respublikamızın ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdə çıxış edən SHXÇDX-nin Lerik rayon şöbəsinin rəisi, polkovnik Arif Həsənov ordu sıralarından ehtiyata buraxılan gəncləri Vətən qarşısında müqəddəs vəzifələrini uğurla başa çatdırmaları münasibətilə təbrik edib, onların bundan sonra müxtəlif sahələrdə ölkəmizin inkişafı naminə fəaliyyət göstərəcəklərinə inandığını bildirib.

Lerik Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Cəlil Baxşıyev ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş ordu quruculuğu prosesinin bu gün Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilməsindən söhbət açıb.

Silahlı Qüvvələrdən ehtiyata buraxılmış gənclər adından çıxış edən Rəsul Xanlarov Azərbaycan Silahlı Qüvvələri sıralarında xidmətləri ilə qürur hissi keçirdiklərini deyib. Bundan sonra da ölkəmizin ərazi bütövlüyü və müstəqilliyi uğrunda mübarizəyə hər an hazır olacaqlarını diqqətə çatdırıb.

Digər çıxış edənlər həqiqi hərbi xidmətin vətəndaşlıq borcu və şərəf olduğunu vurğulayıblar. Azərbaycan xalqının ordumuzun gücünə inandığını bildirib və işğal altındakı torpaqlarımızın tezliklə azad ediləcəyinə əminlik ifadə ediblər.

Sonda ehtiyata buraxılmış hərbi vəzifəlilərə müxtəlif qiymətli hədiyyələr təqdim olunub.

**Müşfiq MİRZƏ,**
**"Respublika".**

# ŞƏMKİRDƏ ƏHALİNİN SİYAHIYAALINMASI ÜZRƏ HAZIRLIQ İŞLƏRİ



**Demoqrafiya siyasəti dövlətin sosial siyasətinin mühüm və başlıca tərkib hissəsi olub, onun əsasını təşkil edir. Bu istiqamətdə həyata keçirilən tədbirlərin effektivliyinin öyrənilməsi məqsədilə bu il oktyabr ayının 1-dən 10-na kimi əhalinin növbəti siyahıyaalınması keçiriləcək.**

Şəmkir Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Qüdrət Əliyevin sədrliyi ilə əhalinin siyahıyaalınması, təlimatçı və sayıcı məntəqələri və ümumi hazırlıq işlərilə bağlı iclas keçirilib.

Qüdrət Əliyev çıxış edərək bildirib ki, siyahıyaalma hər hansı bir ərazidə yaşayan əhali haqqında demoqrafik, iqtisadi və sosial məzmunlu məlumatların vaxtaşırı toplanması, ümumiləşdirilməsi və təhlili prosesidir. Azərbaycan Respublikasında əhalinin siyahıyaalınması hər 10 ildən bir keçirilir. Şəmkir rayonunda 1999-cu ildə keçirilmiş siyahıyaalmadan bu yana sakinlərimizin sayı xeyli artmışdır. Son illər əhali artımında müsbət miqrasiya ilə yanaşı, yeni doğulanların sayı əsas rol oynamış, Şəmkir əhalisinin sayı 2019-cu ilin yanvar ayına olan tarixə 217 min 202 nəfərə çatmışdır.

İcra başçısının müavini bildirib ki, əhali artımı bu gün Şəmkirdə əldə olunmuş sosial-iqtisadi inkişafın uğurlu nəticəsidir.

İclasda bildirilib ki, mühüm dövlət tədbirinin əsas icraçısı kimi əhalinin siyahıyaalınması ilə bağlı hazırlıq işlərinin görülməsi və onun keçirilməsi, yekunlarının işlənilməsi, nəticələrinin dərc edilərək yayılması Dövlət Statistika Komitəsinin yerli şöbəsi ilə birgə həyata keçiriləcək. Təsdiq olunmuş iş planına əsasən Şəmkir rayonunda kənd və qəsəbələr üzrə sxematik plan və xəritələri hazırlanmış, evlərin, mənzillərin sayı və digər göstəricilər haqqında məlumatlar dəqiqləşdirilmişdir. Əldə olunmuş məlumatlar əsasında hər bir inzibati ərazi vahidi üzrə təşkilati planlar hazırlanmışdır. Təşkilati plana əsasən Şəmkir şəhəri və qəsəbələr üzrə siyahıyaalma məntəqələrinin, təlimatçı və sayıcı məntəqələrinin, kənd yerlərində siyahıyaalma məntəqəsinin təlimatçı və sayıcı məntəqələri üzrə tərkibləri müəyyənləşdirilmişdir.

Əhalinin siyahıyaalınması üzrə həyata keçirilən hazırlıq işləri bu mühüm tədbirin Şəmkir rayonunda vaxtında, dolğun və mütəşəkkil keçirilməsinə imkan yaradacaqdır.

**Eyvaz HƏMİD,**
**"Respublika".**

# Milli Mətbuat Günü münasibətilə media nümayəndələri mükafatlandırıldı





**Azərbaycan İlahiyat İnstitutu (Aİİ) 22 İyul - Milli Mətbuat Günü münasibətilə tədbir təşkil edib.**

Tədbirdə Azərbaycan Mətbuat Şurasının sədri, millət vəkili Əflatun Amaşov, Azərbaycan İlahiyyat İnstitutunun rektoru Ceyhun Məmmədov, kütləvi informasiya agentliklərinin rəhbərləri və jurnalistlər iştirak ediblər.

Aİİ rektoru Ceyhun Məmmədov əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan və Prezident İlham Əliyev tərəfindən davam etdirilən siyasət nəticəsində, mətbuatımızın özünün yeni inkişaf mərhələsinə qədəm qoyduğunu vurğulayıb. Rektor qeyd edib ki, ulu öndər Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi 1969-1982-ci illərdə və 1993-cü ildən sonrakı dövrdə də bütün sahələrdə olduğu kimi, yazarlara, mətbuat işçilərinə, qələm əhlinə xüsusi diqqət və qayğı göstərib. Ölkəmiz müstəqillik əldə etdikdən sonra hər il iyulun 22-si Milli Mətbuat Günü kimi qeyd olunur.

C.Məmmədov mətbuatın dövlət-din münasibətlərinə xüsusi diqqət və həssaslıqla yanaşmasını yüksək qiymətləndirib, media nümayəndələrini bu sahədə həyata keçirilən islahatları ictimaiyyətə çatdırmaqda daha da fəal olmağa çağırıb. O, dünyada, xüsusilə din sahəsində baş verən dəyişikliklərin ictimaiyyətə çatdırılmasında fəal jurnalist mövqeyi ilə seçilən mətbuat nümayəndələrini 22 İyul - Milli Mətbuat Günü münasibətilə təbrik edib.

Media nümayəndələrini təbrik edən Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşov mürəkkəb, lakin şərəfli inkişaf yolu keçmiş Milli Mətbuatımızın xalqımızın maariflənməsində, milli dəyərlərin təbliğində mühüm vasitə olduğunu, Azərbaycanda medianın inkişafı istiqamətində zəruri tədbirlərin həyata keçirildiyini nəzərə çatdırıb.

Ə.Amaşov Həsən bəy Zərdabinin redaktoru olduğu "Əkinçi"nin şanlı ənənəsinin bugünkü mətbuatımız tərəfindən uğurla davam etdirildiyini vurğulayıb. O, bildirib ki, Azərbaycan tolerant ölkədir və respublikamızda mövcud olan bu mühitin təbliğində, eyni zamanda xarici qüvvələrin dindən sui-istifadə cəhdlərinin qarşısının alınmasında media nümayəndələrinin fəaliyyəti önəmlidir. Natiq həmçinin milli-mənəvi və dini dəyərlərimizin təbliğ və təşviq edilməsində, dinin gözəl və düzgün formada ictimaiyyətə çatdırılmasında media nümayəndələrinin üzərinə böyük məsuliyyət düşdüyünü qeyd edib.

Beynəlxalq Mətbuat Mərkəzində təşkil olunan tədbirdə Aİİ-nin fəaliyyətini obyektiv işıqlandıran, fəallığı ilə seçilən media nümayəndələrinə mükafatlar təqdim olunub.

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**

*Ziyalı sözü*

# İsmayıllı: Durulan suları bulandırmayaq

**Müxbir məntəqəmizə İsmayıllı rayonunun Diyallı kənd tam orta məktəbinin müəllimi Məzahir Tapulovun imzası ilə daxil olan məktub bizə həmin rayondan son 6 ildə ikinci dəfə yuxarıdakı başlıqlı yazı ilə çıxış etmək qərarını verdi. Müxbir şərhindən öncə Məzahir Tapulovun məktubundan bəzi xatırlatmalar yerinə düşər.**

- Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin regionların sosial-iqtisadi inkişafına göstərdiyi diqqət və qayğı bizim İsmayıllı rayonunun da tarixinə çoxlu uğurlu səhifələr yazmışdır. Müdrik ağsaqqal, iqtisadçı alim, Əməkdar elm xadimi Mirdaməd Sadıqovun 2013-cü ildə İsmayıllı rayonuna İcra Hakimiyyətinin başçısı təyin olunması İsmayıllıya yeni sağlam həyat gətirmiş, hər sahədə böyük canlanma yaratmışdır. İlk gündən isə vətəndaşların xahiş və tələblərinə diqqət yetirməklə başlayan rayon rəhbəri fəaliyyətini hamının yaxşı yaşamaq və yaxşı işləmək yönünə istiqamətləndirmişdir. Rayonumuzda son 6 ildə yolların çəkilişi, yeni yaşayış binalarının tikilməsi, müxtəlif sahələr üzrə yeni iş yerlərinin açılması, sosial infrastrukturun köklü şəkildə yenilənməsi verilən düzgün istiqamətə olan inam və sevgini daha da artırır, hamıda xoş ovqat, yüksək işgüzarlıq əhval-ruhiyyəsi yaradır. Rayon rəhbərinin yaşadığım Diyallı kəndinə olan diqqət və qayğısı bir müəllim kimi məni də həddsiz sevindirir. Zəlzələ və təbii uçqunla əlaqədar Diyallı kəndində 30-a yaxın evin, bir feldşer-mama məntəqəsinin tikintisi, kəndin tikinti poliqonuna çevrilməsi sakinlərin hədsiz sevincinə səbəb olub. Bir sözlə, hər gün inkişaf edib müasirləşən İsmayıllının dilbər guşəsi olan Diyallı bu gün böyük tikinti meydanını, təmizlik və gözəllik ünvanını xatırladır. Bütün bunlara görə kəndimizin sakinləri, o cümlədən biz ziyalılar cənab Prezidentə dərin minnətdarlığımızı bildirir, Allahdan ona möhkəm cansağlığı, uzun ömür arzulayırıq. İstəmirik və qətiyyən yol vermərik ki, respublikamızda, eləcə də rayonumuzda və kəndimizdə öz şəffaflığı ilə hər yana aydınlıq gətirən, durulan sularımızı kimsə bulandırmaq arzusunda olsun.

Bəli, sözün həqiqi mənasında, İsmayıllı son 6 ildə neçə onilliklərə bərabər inkişaf yolunu keçib. Bu barədə qəzetimizin yaxın günlərdəki nömrələrində məqalə verdiyimizdən, yəqin ki, əlavə geniş şərhə ehtiyac yoxdur. Təkcə onu qeyd etmək lazımdır ki, İsmayıllıya regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramları çox uğurlar gətirib. Burada indi işgüzarlıq da, qayğıkeşlik də var, hər sahədə şəffaflıq və təmizlik də. İsmayıllı, respublikada özünü maliyyələşdirən rayonlardandır. Öz gücünü, daxili imkanlarını yaradıcılıqla, qənaətcilliklə səfərbər etməklə İsmayıllı yüksəlişə gedən yolda inamla irəliləyir. Aldığımız oxucu məktubunda da qeyd olunduğu kimi, bu yüksəlişə, qayğıkeşliyə xəbislik edənlər, zahirdə gülüb, daxildən qram-qram əriyənlər də, daha doğrusu, durulan suları bulandırmağa can atmaq istəyənlər də var. Amma unutmayaq ki, bu inkişafın, tərəqqinin, dövlət qayğısının qarşısında bu arzular əriyib yox olur. Bizə göndərilən məktubda ziyalı sözünün, dövlətə, dövlətçiliyə vətəndaş sədaqətinin özəyini də bu təşkil edir. Ona görə də hamımızın gözü qabağında olan inkişafa alqış deməklə sularımızın duruluğunu həmişə qoruyaq.

**Rasim AMANOV,**
**"Respublika".**

*Bələdiyyə həyatı*

# Yerli özünüidarəetmə orqanı abadlıq-quruculuq işlərində fəallıq göstərir



**Ümummilli liderin tövsiyəsi və xeyir-duası ilə formalaşan və fəaliyyətə başlayan bələdiyyələr artıq 20-ci ildir ki, yerli özünüidarəetmə qurumu kimi özünü təsdiq etməkdədir. Ötən illərin təcrübəsi onların təşəkkül taparaq əhali arasında yüksək nüfuz qazanmasını şərtləndirib.**

Bu müddət ərzində bələdiyyələri təmsil edən qurumlar ictimaiyyətdə yerli özünüidarəetmə orqanları barədə müəyyən təəssürat yarada biliblər. Belə bələdiyyələrdən diqqətçəkən Nizami (Gəncə ş.) bələdiyyəsi sözün əsl mənasında, nümunədir. Bələdiyyə yaşayış məntəqələrində sakinlərin tam rahatlığı üçün məqsədyönlü işlər görmüşdür. Şəhər icra hakimiyyətinin tövsiyəsi əsasında Gəncə şəhər Mənzil Kommunal Təsərrüfat İstehsalat Birliyi ilə birgə rayon ərazisində olan küçələrdə, park və xiyabanlarda daima təmizlik işləri aparılır. Vaxtaşırı bələdiyyə üzvlərinin, əməkdaşların və könüllülərinin iştirakıyla bələdiyyəyə ayrılmış yaşıllıq zonasında, Atatürk, Nizami, 28 may prospektlərində, küçə və xiyabanlarda geniş iməcilik keçirir. Eyni zamanda aeroport yoluna daimi diqqət yetirilir, təmizlik, səliqə-sahman yaradılır. Abbas Səhhət və Hacı Zeynalabdin Tağıyev küçəsi yenidən qurulmuş, sakinlərinin ixtiyarına verilmişdir.

Ətraflı məlumat almaq üçün **Nizami (Gəncə ş.) bələdiyyəsinin sədri Qoşqar Məmmədovla** Yeni Gəncə massivində "Novruz" meydanında sakinlərlə görüşdüyü zaman həmsöhbət olduq. Burada sözün əsl mənasında qızğın iş gedirdi. Ağacları su ilə təmin etmək üçün yeni müasir su nasosu quraşdırılırdı. Sakinlər də kömək etmək əzmində idilər. Ağsaqqalların və sakinlərin müraciətini bələdiyyə sədri diqqətlə dinləyir və müvafiq tədbirlər görürdü. Müsahibimiz qeyd etdi ki, bildiyimiz kimi ümummilli liderimiz Heydər Əliyev tərəfindən yerli özünüidarəetmə orqanları yaradılmış və ötən müddət ərzində insanlar yerli özünüidarəetmə orqanlarının fəaliyyətini gündəlik həyatlarında hiss etmişlər. Vətəndaşlar artıq bizə ümidlə yanaşır və etibar edirlər. Parkda bələdiyyə sədri ilə söhbət edən şəhər ağsaqqalları Fərhad Sultanov və Şahin Cəfərov ağızdolusu görülən işlərdən danışdılar və bu sonsuz diqqət və qayğıya görə ölkə başçısı cənab İlham Əliyevə dərin minnətdarlıqlarını ifadə etdilər.

Qarşıda hələ çox mühüm işlər var, - deyən bələdiyyə sədri şəhərin kənar hissələrində yeni layihələrin icrasının başlanacağını bildirdi.

**Zabit XƏLİLOV,**
**"Respublika".**



# Atatürk, Nərimanov və Türk Qurtuluş Savaşı

**Nəriman Nərimanovu Türkiyədə çoxları tanımır, haqqında da heç bir məlumatları yoxdur. Bu mövzu ilə bir az bağlılığı olanlar isə, onu qardaş Azərbaycanın ilk kommunist rəhbəri kimi şifahi eşitdikləri uydurma söz-söhbət əsasında tanıyırlar. Gerçək isə bu uydurma fikirlərdən çox fərqlidir. Sovetlər Birliyinin Lenindən sonra ikinci dövlət başçısı Stalin tərəfindən Türk, Türkçü olduğu üçün həyatının son günlərinə qədər təqib edilən, Türkiyədə isə kommunist olduğu üçün adının çəkilməsi belə yasaqlanan Nərimanov və onun kimi düşünən insanlar hər iki tərəfdən arzuolunmazlar siyahısında idilər. Halbuki, onlar bizim yəni Türklərin son dönəm tarixində önəmli şəxsiyyətlər kimi yer alıblar və türk milləti adına çox mühüm və əhəmiyyətli işlərə imza atıblar. Bu şəxsiyyətlərdən biri də heç şübhə yoxdur ki, Azərbaycan Sovet Sosialist Respublikasının ilk dövlət başçısı olan Nəriman Nərimanovdur.**

**Hüseyn ADIGÖZƏL**
**Türkiyə**

Nərimanov Bakıda, Azərbaycan Sovet Sosialist Respublikasının rəhbəri təyin olunana qədər müəllimlik edir, yazıçı kimi müxtəlif qəzetlərdə, bilavasitə, 1917-ci ildən etibarən baş yazarı olduğu "Hümmət" qəzetində yazdığı məqalələrlə və çap etdirdiyi kitabları ilə Azərbaycan ictimai fikrində önəmli simalardan biri kimi tanınırdı. Ağalığa, despotizmə və zülmə qarşı Azərbaycan demokratlarının apardığı mübarizədə ön sıralarda yer alan, Azərbaycan Sosial Demokratlarının-sosialistlərinin yürütdüyü mücadilənin liderlərindən biri idi.

Çarizmə qarşı yürüdülən mücadilə sırasında, müxtəlif tarixlərdə təqibə məruz qalmış, cəza almış, Həştərxana sürgünə göndərilmişdir. Türkiyə Türkləri ilə ilk dəfə Həştərxanda sürgündə olduğu illərdə tanış olmuşdur. Birinci Dünya Müharibəsində ruslara əsir düşən və Həştərxana göndərilən türk zabitləri ilə orada qarşılaşmış və onlardan aldığı məlumatlarla Türkiyə və türklərin vəziyyətindən xəbər tutmuş Qurtuluş Savaşı müddətində çətin durumda olan Türkiyə türklərinə əlindən gəldiyindən də daha artığını yaparaq, yardım etməyə çalışmışdır. Buradan Azərbaycana döndükdən sonra Bolşevik partiyasına üzv olan Nərimanov partiyanın mətbu orqanı olan "Hümmət" qəzetinin baş redaktoru olmuş və 1917-ci il oktyabr inqilabına qədər bu vəzifədə qalmış və Çar Rusiyası ilə mücadiləsinə davam etmişdir.

Mustafa Kamal Paşa ilə Nəriman Nərimanov heç vaxt qarşılaşmasalar da çox yaxşı münasibətlərə malik idilər. Bu dostluq müxtəlif tarixlərdəki yazışma və məktublardakı söhbət, qarşılıqlı, ortaq fikirlər əsasında yaranmışdı. Bu iki liderin dostluğu Mustafa Kamal Paşanın Qurtuluş Savaşına apardığı illərdə də davam edir. 1920-ci ilin avqust ayında Mustafa Kamal Paşa, Azərbaycana ünlü yazar Memduh Şevket Esendağı səfir göndərir. Tam bir il sonra Azərbaycanla qurulan dostluq əlaqələri müsbət nəticələr verir. Azərbaycan Ankarada səfirlik açmaq haqqında qərar qəbul edir. İlk səfir İbrahim Əbilovun dəvətilə səfirliyin açılışında iştirak edən Mustafa Kamal Paşa Azərbaycan bayrağını öz əlləriylə göylərə qaldırır və çıxışında deyir: "Milli hüdudlarımız içində azad və müstəqil yaşamaq istəyirik. Millətimiz bu istəyimizin qardaş Azərbaycan xalqı və hökuməti tərəfindən dəstəkləndiyi üçün böyük qürur hissi duyur. Türkiyə və Anadolu türkləri azərbaycanlı qardaşlarının onlara bəslədikləri xoş və gözəl duyğulara böyük dəyər verirlər. Yaşasın Türkiyə-Azərbaycan qardaşlığı".

Mustafa Kamalın bu çıxışı Çar Rusiyasında 1917-ci il oktyabr inqilabının qələbəsindən sonra 1920-ci ildə Azərbaycanda Sovet rejiminin qurulduğu bir vaxta təsadüf edirdi. Nəriman Nərimanov Lenin tərəfindən Azərbaycan Sovet Sosialist Respublikasına dövlət başçısı təyin edilmişdi.

Anadoluda davam edən Qurtuluş savaşının zəfərlə başa çatması üçün lazım olan maddi və mənəvi dəstəyin alına biləcəyi ölkələrin başında Sovetlər Birliyi dövləti vardı. Mustafa Kamal təbii ki, imperializmin, xüsusən də Qərbin böyük güclərinin düşməni olan Sovetlər Birliyindən imperializmə qarşı savaşmaq üçün dəstək və yardım istəyir. Buna görə, Yusuf Kamal bəy, İbrahim Tali bəy, Osman Nuru bəy və hərbi qubernator Seyfi Bəydən ibarət nümayəndə heyətini Moskvaya göndərir. Bu heyət Moskvada hakimiyyəti təmsil edən heç kimsə ilə görüşmədən geri dönmək məcburiyyətində qalır.

Türkiyə Böyük Millət Məclisi 1921-ci ilin fevral ayında Ali Fuat Cebesoy, Yusuf Kamal və Dr. Riza Nurdan ibarət bir heyətin əvvəlcə Bakıda olmasına, oradan Moskvaya getməsinə qərar verir. Bu heyət Bakıda Şura hökumətinin başçısı Nəriman Nərimanov tərəfindən qarşılanır. Nərimanov hələ 1915-ci ildə Leninin elan etdiyi qanunlara görə qurulacaq Bolşevik dövlətin çar hakimiyyətinin xalqlar həbsxanasına çevirdiyi Rusiyanın qapılarını açacağına, xalqların öz müqəddəratını özlərinin təyin haqqına sadiq qalacağına, xalqlara azadlıq verərək bütün Şərq xalqlarını imperializmin zəncirlərindən qurtaracağına inanırdı. Məhz bu illərdə kapitalist və imperialist təmsilçiləri dövlətlər işğal etdikləri Türkiyəni öz müstəmləkələrinə çevirmək üçün çalışırdılar. Türkiyədə başda Mustafa Kamal Paşa olmaqla bir qrup vətənsevər işğala son qoymaq üçün Qərb dövlətlərinə qarşı cəbhə açmış, ölkələrini və azadlıqlarını qorumaq və qurtarmaq üçün imperialistlərlə savaşırdılar. Bu vətənsevərlərə yardım etmək və düşmənləri olan imperializmlə savaşan bir xalqa dəstək vermək Nərimanovun inandığı prinsiplər və qanunlar baxımından son dərəcə gərəkli və önəmliydi.

Nərimanov Anadoluda imperializmə qarşı savaşan xalqın özü kimi Türk olduğunun fərqindəydi. Onlara yardım etməyi prioritet olaraq düşünür və qardaşlarının azad və müstəqil yaşamasına dəstək vermək istəyirdi. Onun bu duyğu və düşüncədə olduğunu Moskvaya gedəcək TBMM heyətini öncə Bakıya özü ilə görüşə dəvət etməsi də təsdiq edir. Dr. Riza Nur, xatirələrində bir görüş sırasında "... Bolşoviklik nədir? Bu rəzalət bizə yaraşmaz. Biz Türkük. Millətimizin ürf, adət və ənənələri ilə yaşayırıq" dediyini diqqətə çatdırır. Bu xatırlatma Nərimanovun Mustafa Kamal Paşa və silahdaşlarını nədən dəstəkləməsi sorğusuna da açıq və dəqiq cavabdır (Rıza Nur. "Moskva-Sakarya xatirələri" İstanbul 1991. Səh. 117).

Nərimanov Türk qurtuluş savaşının uğurla, qalibiyyətlə başa çatmasının Şərq xalqları üçün yaxşı bir örnək olacağını düşünürdü. Anadoluya hücum edən imperializmin yenilməsi ilə məzlum Şərq xalqlarının hərəkətə keçərək azadlıqlarına qovuşacaqları ideyasının gerçəkləşməsi üçün Türk Qurtuluş Savaşına dəstək verdiyini bildirən Nərimanov bu inamın Leninə də yazdığı məktubda açıq bildirir. Bu fikirdə olan Nərimanov Mustafa Kamal Paşa öndərliyindəki vətənsevərlərlə ilk təması 1920-ci ildə Naxçıvan Bölgə komutanı olan Mürsel Paşa ilə qurur. Onun yardımı ilə öncə Şərq cəbhəsi komutanı Kazım Karabekir Paşa sonra da başkomutan Mustafa Kamal Paşa ilə əlaqələr yaranır. Çox səmimi olan bu əlaqələri nəzərə alan Mustafa Kamal Paşa TBMM heyətinə öncə Bakıya gedərək Nəriman Nərimanov ilə görüşmələrini tövsiyə edir. Bu heyət ilə görüşən Nərimanov məsələ ilə bağlı Leninə bir məktub yazır və çox güvəndiyi adamlarından Behbud Şahtaxtinskini də Moskvaya göndərir. Nərimanovun bu tədbiri sayəsində, Mustafa Kamal Paşa bu heyətin Moskva səfərindən gözlənildiyindən də artıq müsbət nəticələr əldə etdi və Ankaraya döndü.

Nərimanovun Leninə Bakıdan göndərdiyi bu məktubu Lenin 1921-ci il fevralın 19-da oxumuşdur. Məktubun çox diqqətlə oxunduğu bizə bəzi fikirlərin altından qara qələmlə xətt çəkilməyindən də aydın olur. Lenin məktubun kənarına qeydlərini yazaraq Stalinə həvalə etmişdir: "Yoldaş Stalin! Məktub haqqında fikirlərinizi bildirin. Məktubu Mərkəzi Komitənin üzvlərinə verin. Onlar məktubu oxuduqlarını yazaraq imzalasınlar. Sonra məktubu mənə geri qaytarın". 19 fevral tarixi yazılmış və Lenin tərəfindən imzalanmış məktubun üzərində Mərkəzi Komitə üzvlərinin qeydləri və imzaları var: "Geri qaytarıram" , "Oxudum" N.Krestinski, L.Srebiyakov. "Oxudum" Zinovyev, Radek, A.İ.Rıkov, M.Kalinin. "Zənnimcə, Nərimanov öz fikirlərində haqlıdır", İ.Kamnev "Məsələyə bütünlüklə cümə axşamı günü baxılması vacibdir. Oxudum" N.Buxarin.

Buxarinin bu qeydində "Məktubda haqqında bəhs edilən heyət gəlmiş olmalıdır. Bu heyəti kimsə qəbul etmir. Bunu mənə Mərkəzi Komitədə çalışanlardan biri söylədi" kimi ifadələrin yer alması, Nərimanovun bu məsələdə araya girməsinin nə qədər doğru və əhəmiyyətli olduğunu göstərir. Demək olar ki, məktub və Behbud Şahtaxtinski olmasaydı, heyət yenə də kimsə ilə görüşmədən geri dönəcəkdi.

Nərimanov Leninə yazdığı bu məktub ilə Anadolu Türkləri olan qardaşlarına əlindən gələn bütün yardımı etmək niyyətində olduğunu açıq şəkildə təsdiq edir. Hətta bir məqamda Leninə şantaj belə yaparaq Türkiyənin İngiltərə qarşısında tək qalmasının qarşısının alınmasına çalışırdı: "Erməni məsələsi Türklər üçün ölüm, qalım məsələsidir. Bu məsələdə Türklərin yanında yer almasanız, bütün Şərq xalqlarını itirə bilərik və Azərbaycanı əldə saxlamaq mümkün olmaz!." Bu cümlələr Nərimanovun Anadoludakı Türk Milliyyətçiləri ilə bir anlaşma imzalanması və Türkiyəyə yardım edilməsi üçün çox tutarlı arqumentlər idi. Mərkəzi Komitədə Türkiyə Böyük Millət Məclisi heyətinin Xarici İşlər Naziri Çiçerin ilə görüşməsi qərara alınır. Ermənilərin yaxın dostu olan Çiçerin Türkiyədən gələn heyəti soyuq qarşılayır və heç bir təkliflərini diqqətə almır. Stalinin Çiçerinə təpkisindən sonra heyətlə bir daha görüş keçirilir və anlaşma imzalanır. Türkiyə istədiyi beş milyon qızıl pul yerinə bir milyon qızıl pul borc ala bilir. Naxçıvanın Azərbaycanın tərkibində qalması razılaşdırılır. Rusiya Federasiyası ilə Türkiyə ortaq düşmənləri İngiltərəyə qarşı hər məsələdə iş birliyində olmağı qərarlaşdırırlar.

Beləliklə Ankara hökuməti beynəlxalq aləmdə böyük bir dövlət tərəfindən dəstəklənir, istədiyi qədər olmasa da borc pul ala bilir, Naxçıvan məsələsini düşündüyü şəkildə həll edə bilir. Əlbəttə bu nəticələrin alınmasında Nərimanovun Leninə təsirini unutmaq olmaz. Lenin Nərimanovun məktubdakı xəbərdarlıqlarını diqqətə almış və tərəflər arasındakı anlaşmanın gərəkli olması qənaətinə gəlmişdir. Ankara hökumətinin Sovet İttifaqı tərəfindən tanınması beynəlxalq siyasi müstəvidə çox önəmli hadisə idi. Bu uğurun memarlarından biri, heç şübhə yoxdur ki, o dönəmdə Azərbaycan Şura hökumətinin başçısı Nəriman Nərimanov idi.

1921-ci ildə Türk ordusunun işğalçı Yunan ordusu qarşısında ard-arda qazandığı Birinci və İkinci İnönü zəfərləri Azərbaycanda da böyük sevinc və coşquya səbəb oldu. Nərimanovun tapşırığı ilə Azərbaycanın xarici işlər komissarı (naziri) Davud Hüseynov TBMM rəhbərliyinə bir təbrik mesajı göndərdi. "...İmperializmə qarşı qazandığı böyük zəfərlərə görə qardaş Türk xalqını, TBMM-ni və onun rəhbəri Mustafa Kamal Paşanı Azərbaycan Sovet Sosialist Respublikası və Azərbaycan xalqı adından təbrik edirik" deyilən teleqrafda, Azərbaycan xalqının arzusu ilə Azərbaycan hökumətinin bu böyük zəfərlərin şərəfinə otuz sistern neft, iki sistern benzin və səkkiz sistern kerosin göndərildiyi bildirilirdi.

Yenə Nərimanovun əmri ilə 1921-ci il, may ayının ortalarında Azərbaycan Şura hökuməti, TBMM Hökumətinin tələbi olmadığı halda altmış iki sistern neft göndərdi. Xarici işlər komissarı Davud Hüseynov Nərimanovun tapşırığı ilə göndərdiyi teleqrafda "... Bundan sonra Azərbaycan hökuməti qardaş türk xalqının yürütdüyü azadlıq savaşı müddətində hər ay altmış iki sistern neft və üç vaqon kerosin göndərməyi öhdəsinə götürür" deyirdi.

Azərbaycan Nərimanov vəzifədə qaldığı müddətdə bu öhdəliyinə sonuna qədər sadiq qaldı. Bu aylıq öhdəlikləri nəzərə alsaq 1922-ci ilin iyul ayına qədər Azərbaycan Türkiyəyə Batum yolu ilə doqquz min tondan çox kerosin və üç yüz əlli ton benzin göndərdi.

1921-ci ildə Mustafa Kamal Paşa Azərbaycanın dövlət başçısı Nərimanova yazdığı məktubda borc pul göndərməsini xahiş edirdi. Məktub 1921-ci il martın 17-də TBMM Azərbaycan təmsilçisi böyük səfir Memduh Şövkət bəy tərəfindən Nərimanova təqdim edildi. Nərimanov hökumət üzvlərindən bəzilərinin buna qarşı çıxmalarına rəğmən Mustafa Kamal Paşaya müsbət cavab verdi. Dərhal xəzinədə olan 500 kilo qızılı Ankaraya çatırdı. TBMM hökuməti bu qızılın iki yüz kilosunu dövlət büdcəsinə, qalanını isə Müdafiə Nazirliyinə ayırdı. Daha sonra, Azərbaycan hökuməti tərəfindən Rusiyadan alınan on milyon qızıl pul Ankaraya göndərildi. Yenə eyni məktuba görə, Azərbaycan hökuməti otuz sistern neft, iki sistern benzin və səkkiz sistern mədən yağı göndərdi. Nərimanov 1921-ci il martın 23-də Mustafa Kamal Paşaya yazdığı cavab məktubunda bir-birinin ardınca qazanılan zəfərlərlə Türk xalqının imperializmdən qurtulma günlərinin yaxınlaşdığını, buna görə, bu uğurları qazanan TBMM hökumətini, onun başçısını və qəhrəman Türk ordusunu təbrik etdikdən sonra "Paşam, Türk millətində bir ənənə vardır; qardaş qardaşa borc verməz, qardaş qardaşın hər çətin durumunda əlindən tutar. Biz qardaş xalqlarıq, hər zaman və hər şərtlər altında bir-birimizin əlindən tutacağıq. Bu gün etdiklərimiz bir qardaşın qardaşına etdiklərindən başqa bir şey deyildir" yazırdı. (Doğan Avcıoğlu. "Milli Qurtuluş Tarixi" 3-cü cild, səh. 438.) Qurtuluş Savaşımızın ən təhlükəli günlərində, bir qardaş olaraq əlini uzadan və əlindən gələn bütün yardımları yapan Sovetlər Birliyindən Türk Qurtuluş Savaşına böyük dəstək verən Nəriman Nərimanovun bir kommunist olsa da, Türk olduğundan Türk milliyyətçisi olduğundan zərrə qədər şübhəmiz yoxdur. Onun kommunist olması bizə yardım etməsinə əngəl olmadığı kimi bizlər də onun kommunist olmasına baxmayaraq, onun Türkiyə türkləri və Türk milləti üçün etdiklərini əsla unuda bilmərik. Tarix olduğu kimi yazılmalıdır ki, Türk birliyinin təməli sağlam olsun!

Tarixi mənbə və qaynaqlar təsdiq edir ki, Nərimanov Azərbaycan Dövlətinin başında qaldığı iki il boyunca Moskvaya bağlı olmasına baxmayaraq, müstəqil dövlət başçısı kimi hərəkət edərək Türkiyə hökuməti ilə olan əlaqələri daha yüksək ölçü və miqyaslara daşımış və hər şeydən önəmlisi, çox çətin durumda olan Anadoludakı qardaşlarına dövlətinin bütün imkanlarını səfərbər edərək heç kimsədən çəkinmədən əlindən gələn hər cür yardım etmişdir. Bütün bunlar sənəd və mənbələrdə öz əksini tapsa da, tarixi dəyərini almamışdır.

Mustafa Kamal Paşa ilə Nərimanov həyatları boyunca heç vaxt görüşməyiblər. Aralarındakı əlaqələr rəsmi yazışmalar və məktublar vasitəsiylə qurulmuşdur. Mustafa Kamal Paşa ilə Nəriman Nərimanovun əlaqələri Nərimanovun vəzifədən alındığı 1922-ci ilin sonlarına qədər davam etmişdir və Nərimanovun vəzifədən getməsindən sonra tamamən kəsilmişdir. Atatürk ilə Nərimanovun yazışmaları, Nərimanovun 1925-ci ildə, iddialara görə zəhərlənərək öldürülməsinə qədər bir daha olmamışdır.




**Təqdim etdi:**
**Şükür ŞƏNOL.**

# Nəsillərə nümunə

**Azərbaycanın ictimai-siyasi həyatında xüsusi rol oynamış, bacarığı və intellektual səviyyəsi ilə diqqət mərkəzində durmuş görkəmli ictimai xadim Bəndalı Əbdülhüseyn oğlu Mehdiyev əslən Bakının Türkan kəndindəndir. Sonralar atası Əbdülhüseyn kişi Keşləyə köçmüş, Səkinə adlı bir qızla həyat qurmuş və onların bu izdivacdan iki oğlan övladı dünyaya gəlmişdir.**

Keşlə kəndinin əsl adı Qışladır. Deyildiyinə görə Bakı xanlarının qaramalı, atları və qoyun-quzu sürüləri burada saxlanılırdı. Bakı xanları sürülərinə baş çəkmək üçün tez-tez buralara gələrdilər. Keşlənin də görünür əvvəlki "Qışla" adı buradan götürülmüşdür. Bunun nəticəsi idi ki, bir kəsi tələsən görəndə el arasında deyərdilər: "Haraya tələsirsən, Keşləyə xan gəlir?" Sonralar burada insanlar daimi məskunlaşmağa başlamış, nəticədə də böyük və sürətlə inkişaf etmiş bir qəsəbəyə çevrilmişdi. Qəsəbədə XVII əsrdə inşa edilmiş məscid tarixi bir abidə kimi qorunub saxlanmaqdadır.

Bəndalı Mehdiyev 1899-cu il may ayında neft Bakısında, fəhlə ailəsində dünyaya göz açıb. Dörd nəfərdən ibarət olan bir ailənin ağırlığı yalnız atası Əbdülhüseyn kişinin çiyinlərinə düşmüşdü. O da bu ailənin yaşayışını təmin etməkdən ötrü gecə-gündüz işləməli olurdu. Əbdülhüseyn kişi Bakının karxanasında fəhlə işləməklə yanaşı, bənnalıqla da məşğul olardı. Zəhmətkeş, halal insan olduğuna görə o, Bakı və ətraf kəndlərdə gözəl bir usta kimi də ad qazanmışdır. Bunun nəticəsi idi ki, bir çoxları, xüsusilə də kəndin kasıb təbəqəsi bənnalıq işlərini ona gördürərdi. O bu qazancdan bir hissəsini ailəsinə, bir hissəsini isə kasıblara, uşaq evlərinə paylayardı. O "əl tutmaq Əlidən qalıb" ifadəsini tez-tez işlədər və bu sözlərə əməl etməyi ömrünün sonuna qədər hamıya tövsiyə edərdi. Əbdülhüseyn kişi zəhmət haqqını sifarişçinin yaşayış tərzinə uyğun razılaşardı. Bunun nəticəsi idi ki, Əbdülhüseyn kişinin müştəriləri çox olardı. O, ömrünün son gününə qədər öz peşəsindən ayrılmamışdı. Əbdülhüseyn kişi keçən əsrin ikinci qərinəsinin başlanğıcında dünyasını dəyişir. Bəndalı müəllim də məhz belə zəhmətkeş kişinin ailəsində dünyaya göz açmışdı...

XIX əsrdən indiyə qədər Bakı öz nefti ilə bir çox dövlətlərin yuxusuna haram qatıb. Həmin illərdə əksər xarici dövlətlərin şirkətləri yenicə dirçəlməkdə olan bu "qara qızılı" istismar etməyə cəhd edirdilər. Məhz bunun nəticəsi idi ki, Bakıya gələn bir çox xarici dövlətlərin şirkətləri Azərbaycanın bu qiymətli sərvətini hərisliklə xaricə daşıyırdılar. Hələ XIX əsrin sonlarına qədər Bakıdakı neft mədənlərini və zavodlarını ələ keçirmək üçün onlarla ingilis kapitalistləri bura gəlmişdilər. Hətta Amerikanın məşhur milyonçuları da bura maraq göstərdiyindən öz nümayəndələrini Bakıya yollamışdılar. Bunların arasında xarici şirkətlərdən ən güclüsü İsveçdən gəlmiş, vaxtilə Rusiyada zavod açıb silah istehsalı ilə məşğul olan Nobel qardaşları olmuşdur. Yazılanlara inansaq Nobel qardaşlarının "Nobel" adlı şəxsi şirkətində otuz minə qədər insan işləyirmiş.

1917-ci ildə Bakının Qara şəhər deyilən yerində Nobel qardaşlarına məxsus şəxsi müəssisəsində Bəndalı Mehdiyev iki il fəhlə işləyib. Ağır iş şəraiti orada çalışanların əksəriyyətini müxtəlif xəstəliklərə düşməsinə səbəb olurdu. Məhz bunun nəticəsi idi ki, 1919-cu ilin aprelindən 1920-ci ilin may ayına qədər ağır şəraitdə işləyən Bəndalı Mehdiyev yatalaq xəstəliyinə tutulur. Bu ağır xəstəlikdən qalxandan bir müddət işsiz qalsa da, lakin gənclər arasında öz mədəniyyəti, alicənablığı, işgüzarlığı ilə seçilən B.Mehdiyev yeni yaranmış hökumət nümayəndəsinin diqqətini cəlb etmiş və onun göndərişi ilə Keşlə kəndində Mənzil İstismar Sahəsinə müdir təyin edilmişdir.

Qeyd edək ki, 1922-23-cü illərdə ölkədə yeni yaranmış hökumətə qarşı etiraz edənlər olsa da, lakin onlara rəğbət bəsləyənlər də tapılırdı. Bolşeviklər özlərini "fəhlə-kəndli" hökuməti olduğunu bəyan etdirməklə kasıb xalqın nümayəndələrinin qəlbinə yol tapmağa müvəffəq olmuşdular. Onlar nəyin bahasına olur-olsun xalqın etimadını doğrultmağa çalışır, özbaşınalığın, qisasçılığın qarşısını almağa səy göstərirdilər. Lakin yeni hökumət nümayəndələrinin arasında öz şəxsi qisasçılığını yaddan çıxarmayanlar da tapılırdı. Nəticədə xalqın nümayəndələri arasında narazılıqlar əmələ gəlirdi. Həmin narazılıqların nəticəsi idi ki, nəinki kapitalistlərin şirkətində işləyən fəhlə və qulluqçular, hətta şair Əhməd Cavad, yazıçı Seyid Hüseyn Sadıqzadə, dramaturq Cəfər Cabbarlı kimi böyük sənətkarlar da nahaqdan həbs edilmişdilər. Həmin qarmaqarışıqlıq vaxtlarda hər bir insan təsadüfən də olsa haqsızlıqlarla üzləşirdi. Bu özbaşınalığın "tamını dadan" B.Mehdiyev həbs olunmasa da, bir müddət işsiz qalmış, sonralar "Caparidze" zavodunda (sonralar Ə.Qarayev adına zavodla birləşib, indiki Azneftyağ) fəhlə, rektifikator işinə cəlb edilmişdir.

Öz bacarığı, işinin öhdəsindən vicdanla gələn, qoyulan planları artıqlaması ilə yerinə yetirən, bilik-bacarığı ilə yoldaşlarından seçilən B.Mehdiyev 1930-cu ildə "Andreyev" adına zavoda növbətçi mühəndis vəzifəsinə təyin olunur. Beş ay burada işlədikdən sonra vaxtaşırı yeni səmərələşdirici təkliflərinə görə zavodun rəhbərliyinin diqqətini cəlb edir və onun ixtisasını artırmaq üçün Amerika Birləşmiş Ştatlarına ezam edilməsi məsləhət bilinir. Qeyd edək ki, burada keçirilən kurslar tam məxfi xarakterli olduğu üçün oradakı məruzələri yazmağa və çəkilmiş çertyojların üzünü çıxarmağa qəti qadağa qoyulmuşdu. B.Mehdiyev güclü qavramaq qabiliyyətinə malik olduğu üçün həmin sənədləri özü ilə "gətirməyə" nail olur. Altı aylıq ezamiyyətdən sonra o zavodda sex rəisi köməkçisi vəzifəsinə təyin olunur.

1936-1937-ci illərdə B.Mehdiyev S.M.Kirov adına Azərbaycan Sənaye Akademiyasında təhsil alır və oranı müvəffəqiyyətlə bitirdikdən sonra işlədiyi zavodda mühəndis-təşkilatçı vəzifəsinə irəli çəkilir.

1937-ci ilin noyabr ayında artıq B.Mehdiyevin bilik və bacarığının nəticəsi idi ki, ona yüksək vəzifələri etimad göstərdilər. İlk ciddi etimad "Stalin" adına zavoda direktor müavini, on ay sonra isə "Caparidze" adına zavoda direktor təyin olunması idi. İşinin öhdəsindən bacarıqla gələn B.Mehdiyev Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin katibi Mir Cəfər Bağırovun diqqətini cəlb edir.

O, 1940-cı ilin fevral ayında respublika rəhbərinin təklifi ilə Şaumyan (indiki Xətai) rayonuna ikinci katib vəzifəsinə təyin edilir. Lakin bir neçə ay sonra "xüsusi adamların" səyi nəticəsində rayonda yerləşən 61 saylı məktəbdə təlim-tərbiyə işinin guya zəif olması və vaxtında tədbir görülmədiyi əsas gətirilərək Şaumyan (indiki Xətai) rayon partiya komitəsinin II katibi B.Mehdiyevə xəbərdarlıq edilməsi üçün həmin rayon Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsi qarşısında məsələ qaldırılır. Sual olunur məktəbin direktoru, rayon və Bakı şəhər təhsil şöbəsinin müdirləri, o məktəbə təhkim olunan təhsil idarələrinin inspektorları olduğu halda rayon partiya komitəsinin II katibinə belə qərar çıxarmaq nə qədər düzgün idi. Qərarda göstərilir ki, əmək intizamını pozduğuna, Bakı şəhər Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin iyul plenumunun qərarlarını vaxtında yerinə yetirmədiyinə və kommunistlərin işdən yayınmalarına qarşı liberallıq göstərdiyinə görə B.Mehdiyevə xəbərdarlıq elan edilsin.

Maraqlıdır həmin vəzifədə bir neçə ay fəaliyyət göstərən katibə qarşı haqsızlıq haradan "qidalanırdı?"

SSRİ Böyük Vətən müharibəsi ərəfəsində idi. Stalinə aydın idi ki, artıq müharibə qaçılmazdır. Ona görə bütün müttəfiq respublikaların müharibəyə hazırlanması üçün göstərişlər verilmişdi. Xüsusilə Azərbaycan diqqət mərkəzində idi. Onun üzərinə çox böyük və ağır vəzifələr düşürdü. Müharibə dövrlərində cəbhəni yanacaqla təmin etmək məhz bu respublikanın neft sənayesində çalışan insanların üzərinə düşürdü. Bu çox böyük bir məsuliyyət tələb edirdi. Neft sənayesinin inkişafını artırmaq, cəbhəni "qara qızılla" təmin etməkdən ötrü ilk növbədə bu sahəyə təcrübəli, səriştəli rəhbər işçi cəlb edilməli idi. Bu sahəni idarə etmək üçün Azərbaycan Respublikası Bakı şəhər Kommunist (bolşeviklər) Partiyasına katib vəzifəsinə təyin etmək üçün respublikanın rəhbərinə o qədər də vaxt lazım olmadı. Həmin çətin, ağır sahənin idarə olunmasını müəyyən etmək üçün o, vaxtilə Azərbaycan K(b)P MK tərəfindən "xəbərdarlıq" almış B.Mehdiyevin adının üzərində dayandı və onun bu vəzifənin öhdəsindən gələcəyini əminliklə bildirdi. Çünki M.C.Bağırova yaxşı məlum idi ki, B.Mehdiyevin "xəbərdarlığı" üçün "canfəşanlıq" edən həmin vəzifədə çalışmış erməni əsilli katib imiş. Ona görə də respublikanın rəhbəri əminliklə B.Mehdiyevi qeyd-şərtsiz namizəd kimi təqdim edəndə büro bu təklifi yekdilliklə qəbul edir.

Müharibə dövrlərində bütün respublikalarda olduğu kimi Azərbaycanda da "hər şey vətən üçün, hər şey cəbhə üçün" şüarı hər bir insanı yaxşı işləməyə ruhlandırırdı. Məhz bunun nəticəsi idi ki, Bəndalı müəllim bu məsuliyyətli vəzifəyə təyin olunandan sonra onun rəhbərliyi altında cəbhənin yanacağının 80 faizini Azərbaycan verməyə başladı.


Bəndalı Mehdiyev

Unutmaq olmaz ki, M.C.Bağırovun etimadını qazanmaq heç də asan məsələ deyildi. Uzun müddət vicdanla işləyən mütəxəssisin hər hansı bir səhvinin M.C.Bağırov tərəfindən bağışlanması mümkün deyildi. Buna görə də bu dövrlərdə işləmək, tez bir zamanda inam qazanmaq hər bir insandan şücaət və məsuliyyət tələb edirdi.

B.Mehdiyevin ali təhsil alandan sonra ən çox çalışdığı iş yeri Bakı şəhər partiya komitəsində neft emalı üzrə katib vəzifəsi olub. O bu vəzifədə üç ildən çox işləyib. Bu illər ərzində Bəndalı müəllimin tez-tez daha yüksək vəzifələrə keçməsinə əsas səbəb, bacarığı, intellektual səviyyəyə malik olması, insanlara qayğı göstərməsi ilə yanaşı, onlara qarşı həm də tələbkarlığı idi. Sadə insanlar ona müraciət etməkdən, ağır, çətin vəziyyətlərini onunla bölüşməkdən çəkinmirdilər. Bəndalı müəllim də onlara qayğı ilə yanaşır, istəklərini yerinə yetirmək üçün əlindən gələni əsirgəmirdi. Çox zaman məvacibi az olan işçilərə müəyyən yollarla mükafatlar da ayırardı. Bəndalı müəllimin yanına gələn işçilər heç zaman naümid yola salınmazdı. İstəklərini yerinə yetirmək imkanı olmayanda şirin və məzəli sözləri ilə onları ovundurmağa çalışardı.

Nəql edirlər ki, bir gün Bakıda keçirilən nümayişdə Azərbaycanın Mərkəzi Komitəsinin katibi Mir Cəfər Bağırov tribunaya çıxıb zəhmətkeşləri salamlayırdı. Həmin salamlayanlar arasında Bəndalı Mehdiyev də var imiş. Bu zaman Quba zəhmətkeşləri tribunanın önündən keçəndə Bəndalı müəllim üzünü M.C.Bağırova tutub "Qubadan gələnlərdir" deyir. Katib heç nə demir. Bu zaman Bakının Keşlə qəsəbəsindən gələn zəhmətkeşlər tribunanın önündən keçəndə M.C.Bağırov Bəndalı müəllimin Keşlə qəsəbəsindən olduğunu bildiyi üçün üzünü ona tutub özünəməxsus yumorla "keşləlilərdir ha..." deyib gülümsəyir.

Vətən müharibəsi illərində SSRİ (MDB) məkanını təmsil etmək üçün İranın Ərdəbil şəhərində olan konsulluğa katib vəzifəsində işləmək üçün Moskvadan Azərbaycanın rəhbərinə müraciət edilir. O illərdə ictimai-siyasi vəziyyət ağır olduğu üçün təsadüfi şəxsi həmin vəzifəyə göndərmək mümkün deyildi. Çünki bu çətin, ağır, məsuliyyətli vəzifəni yerinə yetirmək üçün o bütün sınaqlardan keçməli idi. Respublikanın başçısı bu yerə öz bilik və bacarığı ilə seçilən, tapşırılan işin öhdəsindən gələcəyinə əmin olan B.Mehdiyevin namizədliyini irəli sürür.

B.Mehdiyev İranda iki ilə yaxın öz ölkəsinin mənafeyini qoruyur. O zaman İrandan vətənimizə 6000-dən çox fədainin sərhəddi keçməsinə şəxsən B.Mehdiyev başçılıq edənlərdən biri olub. Şaxtalı günlərdə fədailəri ölümün pəncəsindən qurtarmaq üçün B.Mehdiyev gecə-gündüz işləməli olmuş və nəticədə ağır xəstələnmişdi. Həmin xəstəlikdən o, dörd ay müalicə alır.

Müalicədən sonra B.Mehdiyev Əzizbəyov rayon (indiki Xəzər) "Azneftzavod" birliyinə direktor təyin edilir. 1949-cu ildə isə B.Mehdiyev Moskvaya Ali mühəndislər kursuna göndərilir. Kursu müvəffəqiyyətlə başa vurandan sonra "Ozero" adına kimyəvi zavoda direktor vəzifəsinə təyin olunur. 1956-cı ildə xəstəliyinə görə təqaüdə çıxmalı olur.

Bəndalı Mehdiyevin əməyi hökumət tərəfindən yüksək qiymətləndirilmiş və dəfələrlə qurultaya nümayəndə, Bakı şəhər partiya komitəsinin plenumuna üzv seçilmiş, "Qırmızı Əmək Bayrağı", "Şöhrət" ordeni və bir çox medallarla təltif olunmuşdur.

Azərbaycanın ictimai-siyasi həyatında öz yeri olan, uzun müddət onun inkişafında xüsusi xidmətlər göstərən Bəndalı Əbdülhüseyn oğlu Mehdiyev 1969-cu il avqust ayının 21-də, 70 yaşında dünyasını dəyişir. Azərbaycan xalqının vətənpərvər oğlu, təvazökar insan Bəndalı Əbdülhüseyn oğlu Mehdiyevin ölümündən bizi yarım əsrlik bir vaxt ayırır. Lakin təəssüflə qeyd edək ki, onun adını əbədiləşdirməkdən ötrü hələ də bir iş görülməyib. Axı xalqımız qədirbiləndir. Biz inanırıq ki, böyük vətənpərvər, qayğıkeş insan olan B.Mehdiyev qədirbilən xalqımız qarşısında gördüyü işlərə görə öz layiqli qiymətini alacaq. Bizə elə gəlir ki, buna onun haqqı da var.

**Aslan KƏNAN,**
**ARDTA-nın direktoru.**

# GƏNCƏ: YENİ TƏLİM EMALATXANASININ AÇILIŞI

Gəncədəki peşə məktəbində yeni təlim emalatxanasının açılışı olub. Təlim emalatxanası Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının Azərbaycan Nümayəndəliyi tərəfindən həyata keçirilən "Gəncədə Sənaye üzrə Regional Peşə Kompetensiya Mərkəzinin Yaradılmasına Dəstək" layihəsi çərçivəsində qurulub. Layihə Avropa İttifaqının maliyyə dəstəyilə reallaşdırılır. Sənaye emalatxanasının açılışından əvvəl Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov Təhsil nazirinin müavini İdris İsayevi, Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının Rezident əlaqələndiricisi Alessandro Frakassettini, Avropa İttifaqının Azərbaycan Respublikasındakı Nümayəndəliyinin müşavir-elçisi Simona Gattini qəbul edib. Görüşdə Gəncədə həyata keçirilən layihə, onun məqsədi və perspektivlərindən söz açılıb. Bildirilib ki, layihənin əsas məqsədi Gəncə və ətraf rayonlarda peşə təhsilinin cəlbediciliyini artırmaq, tələbələrin peşə təhsilinə qəbulu və buradakı iştirakını genişləndirmək, habelə peşə təhsili sistemini mövcud bazar tələbatı və sənaye sektorunun tələbləri ilə uyğunlaşdırmaqdır.



Görüşdən sonra şəhər rəhbəri və qonaqlar Gəncə Peşə Təhsili və Təlim Məktəbində yeni sənaye emalatxanasının açılışında iştirak ediblər. Müasir standartlara uyğun şəkildə qurulan emalatxana ötən il təsis olunan Gəncə Peşə Təhsili və Təlimi Mərkəzinin binasında yerləşir və mərkəzin yeni tədris planına daxil edilən altı mühüm sahə üzrə peşə təhsili proqramlarını tədris etmək üçün dünya səviyyəli sənaye və texniki təlim avadanlığı ilə təchiz edilib. Gəncədəki yeni mərkəzin açılışında çıxış edən Avropa İttifaqının Azərbaycandakı Nümayəndəliyinin müşavir-elçisi və Əməkdaşlıq şöbəsinin rəhbəri xanım Simona Gatti qeyd edib ki, "Avropa İttifaqı Azərbaycanda peşə təhsili və təlimi sisteminin Avropa standartlarına və təcrübəsinə uyğun şəkildə müasirləşdirməsinə dəstək göstərir. Ümumiyyətlə, bu layihə vərdişləri əmək bazarının tələblərinə uyğunlaşdırmağa kömək edəcək. Sənaye üzrə Regional Peşə Kompetensiya Mərkəzində 60 tələbə təhsil alır. Tələbələr yeni açılan emalatxanada avadanlıq və texnika ilə necə işləmək lazım gəldiyini öyrənmək imkanı əldə edəcəklər. Sənaye və Texnologiyalar üzrə Gəncə Dövlət Peşə Təhsili Mərkəzinin direktoru Şahin Məhərrəmov son illər dövlətin bu sahənin inkişafına böyük önəm verdiyini diqqətə çatdırıb.

**Zabit XƏLİLOV,**
**"Respublika".**



# "AKKORD" ASC beynəlxalq audit hesabatını açıqladı

**Akkord Sənaye Tikinti İnvestisiya Korporasiyası ASC-nin 2018-ci ilin beynəlxalq audit standartlarına uyğun olan birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatının auditi başa çatıb.**

E-huquq.az xəbər verir ki, audit yoxlaması ABAK-Az Crowe Ltd tərəfindən həyata keçirilib.

ABAK-Az Crowe Ltd beynəlxalq audit şirkətləri arasında ilk 10-luqda 8-ci yeri tutur. Şirkətin baş ofisi Amerika Birləşmiş Ştatlarının Nyu-York şəhərində yerləşir.

Audit yoxlamasının nəticələrinə uyğun olaraq Azərbaycan Respublikası daxilində Korporasiyanın 73.5 mln manat gəlirə cəlb olunan dövriyyəsi olub.

Bu dövriyyədən 11.2 mln manat dövlət büdcəsinə ödənişlər həyata keçirilmiş, ondan 5.8 mln manat vergi, 4.6 mln manat DSMF, 772.5 min manat gömrük rüsumları təşkil edir.

2018-ci ilin ümumi konsolidə olunmuş audit hesabatına əsasən Korporasiya ili 12% mənfəətlə başa vurmuşdur ki, bu da 12.5 mln manat gəlir deməkdir.

Audit yoxlaması zamanı həmçinin müəyyən olunmuşdur ki, banklardan alınmış kredit borcu 2018-ci il ərzində pul ödənişi, zəmanətlərin qaytarılması və "Aqrarkredit" QSC-nin balansına verilmiş əmlaklar hesabına 286.31 mln manat azalıb.

# KEÇMİŞ PAMBIQÇILIQ İNSTİTUTUNUN BƏRPA EDİLMƏSİ ZAMANIN TƏLƏBİDİR

**Ulu öndərimiz tərəfindən pambıqçılığın inkişaf etdirilməsi kolxoz və sovxozların iqtisadiyyatının möhkəmlənməsinə, kənd zəhmətkeşlərinin maddi rifah halının yaxşılaşdırılmasına böyük təsir göstərdi. 1969-cu ildə pambıqçılıqdan 150 milyon manat götürüldüyü halda, 1976-cı ildə bu rəqəm 350 milyon manat olmuşdur. 1970-1976-cı illərdə kolxoz və sovxozlar pambıqdan 2 milyard manat əldə etmişlər. 1981-ci ildə respublikada pambıqçılıq sahəsində ən yüksək nəticə əldə olunmuş, 1 milyon tondan artıq məhsul istehsal edilmişdir. Hektarın məhsuldarlığı 34 sentner, ayrı-ayrı təsərrüfat və briqadalarda isə 50 sentner olmuşdur. 1969-1982-ci illərdə 11 pambıqçılıq briqadiri Sosialist Əməyi Qəhrəmanı kimi yüksək fəxri ada, onlarca istehsalat təşkilatçısı isə yüksək dövlət mükafatlarına layiq görülmüşdür.**

Azərbaycan Elmi-Tədqiqat Pambıqçılıq İnstitutu Respublikamızda yaradılan ilk elmi-tədqiqat müəssisələrindən biri olmaqla fəaliyyəti dövründə böyük yaradıcılıq yolu keçmişdir. O, Respublika Xalq Komissarları Sovetinin qərarı ilə 1925-ci ildə Gəncə seleksiya stansiyasının bazasında yaradılmışdır. 1932-ci ildən həmin stansiya Zaqafqaziya ETPİ-yə çevrilmiş, sonra (1935-ci ildə) Azərbaycan Elmi-Tədqiqat Pambıqçılıq İnstitutu adlandırılmışdır.

Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Aqrar-Elm Mərkəzinin və onun tabeliyindəki elmi-tədqiqat institutlarının strukturunun təkmilləşdirilməsi haqqında" 2015-ci il 17 aprel tarixli 109 nömrəli qərar qəbul etmişdir. Həmin qərara əsasən Azərbaycan Elmi-Tədqiqat Bitki Mühafizəsi İnstitutunun, Azərbaycan Elmi-Tədqiqat Pambıqçılıq İnstitutunun və R.A.Hüseynov adına Azərbaycan Elmi-Tədqiqat İpəkçilik İnstitutunun Biotexnologiya və xəstəlik-zərərvericilərə nəzarət laboratoriyasının, Biomüxtəlifliyin qorunması və genetika laboratoriyasının və Bioinformatika laboratoriyasının bazasında Kənd Təsərrüfatı Nazirliyinin Bitki Mühafizə və Texniki Bitkilər Elmi-Tədqiqat İnstitutu yaradılmışdır.

İnstitutun ilk fəaliyyəti dövründə (1925-1932) alimlik dərəcəsi olan elmi işçilər çatışmırdı. Həmin illərdə Zaqafqaziya ETPİ-yə Muğan, Şirvan, Ağstafa təcrübə-meliorasiya stansiyaları, Mil və Eçmiədzin təcrübə stansiyaları, Qarayazı və Naxçıvan təcrübə tarlaları, Noraşen, Vaqarşapat, Puşkin, Bərdə, Uluxanlı və Borçalı dayaq məntəqələri daxil idi.

Daha sonralar AzETPİ-yə, AzETPİ-nin Mərkəzi Təcrübə bazası (Gəncə şəhəri), Şirvan Təcrübə stansiyası (Ucar rayonu), Mil Təcrübə stansiyası (Beyləqan rayonu), İnstitutun Muğan seleksiya və aqrotexnika şöbəsi və Salyan rayonunda 2 N-li sovxozda təcrübə-istehsalat stansiyası da daxil idi. Hazırda İnstitutun Ucar və Beyləqan rayonlarında fəaliyyət göstərən təcrübə stansiyaları vardır.

Keçmiş Pambıqçılıq İnstitutunun fəaliyyətinin əsas prioritet istiqaməti sort-toxum-aqrotexnologiya olmaqla, qarşısında duran məqsəd, pambıqçılığın dinamik inkişafına təminat verən əhatəli və kompleks proqramın işlənib həyata keçirilməsindən, işlənmiş elmi nailiyyətlərin və qabaqcıl təcrübənin istehsalata tətbiqi və geniş yayılması sahəsində kənd təsərrüfatı müəssisələrinə və fermerlərə lazımi elmi-metodiki köməklik göstərməkdən ibarət idi. Elmi fəaliyyətinin əsas vəzifələri aşağıdakılar olmuşdur:

-yüksək məhsuldar və texnoloji keyfiyyətlərə malik, xəstəliklərə, zərərvericilərə, quraqlığa, duza davamlı, yarpaqlarını təbii olaraq tökən, yüksək yağ çıxımına malik, tezyetişən pambıq sortlarının yaradılması;

-yüksək və stabil pambıq məhsulu becərilməsinə zəmin yaradan kompleks aqrotexnologiyaların işlənib hazırlanması;

-pambıqçılıq bölgələrində torpaqların münbitliyini qoruyub saxlamaq və yüksəltmək, pambıq bitkisi üçün əlverişli sələf bitkiləri seçməklə qısa rotasiyalı növbəli əkin sistemlərinin işlənib hazırlanması və səmərəli gübrə normalarının müəyyən edilməsi;

-pambıq toxumçuluğu işinin elmi əsaslarla qurulması, elit toxum istehsalına elmi-metodiki köməyin və rəhbərliyin həyata keçirilməsi;

-elmi nailiyyətlərin, qabaqcıl təcrübənin ümumiləşdirilməsi, istehsalata tətbiqinə və geniş yayılmasına dair metodik rəhbərlik və köməklik edilməsi.

Pambıqdan alınan məhsullardan xalq təsərrüfatının bir çox sahələrində geniş istifadə olunması, pambıq məhsullarından yüzlərlə müxtəlif məmulatlar alınması, pambıq lifinin toxuculuq sənayesi üçün əvəzsiz xammal olması, çiyidinin qiymətli yağ və heyvandarlıqda qüvvəli yem kimi istifadəsinə görə pambıq strateji əhəmiyyətli texniki bitki sayılır. Pambıqçılığın inkişaf etdirilməsi həm də heyvandarlığın inkişafı deməkdir. Pambıq ət, süd, yağ, ordu, paltar və s. deməkdir. Bu gün rayonlarda tonlarla ərzaq buğdasını heyvanlara yem kimi verirlər. Dünya bazarında pambıq lifinə olan tələbatın daim artmasını da qeyd etmək kifayətdir. Buna dünya bazarında buğda, neftlə və digər qiymətli metallarla müqayisədə pambığın satınalma qiymətinin yüksək olması əyani sübutdur.

Böyük Vətən müharibəsindən sonra, xüsusilə də 50-60-cı illərdə respublikamızda pambıqçılığa diqqət olduqca zəifləmişdir. Pambıq istehsalı ildən-ilə azalmağa başlamışdır. Pambığı perspektivsiz bir bitki hesab edirdilər. Hətta Elmi-Tədqiqat Pambıqçılıq İnstitutunun bağlanmaq təhlükəsi var idi.

Ümummilli liderimiz Heydər Əliyev hakimiyyətə gəldikdən sonra 1969-cu ilin avqustunda və 1970-ci ilin avqustunda Azərbaycan KP MK-nın plenumlarında əkinçiliyi və heyvandarlığı, birinci növbədə pambıqçılığı inkişaf etdirmək üçün konkret tədbirlər planı işlənib hazırlandı. 1970-ci ildən başlayaraq pambıq istehsalı və dövlətə satış planları artıqlaması ilə yerinə yetirilməyə başladı. 1969-cu ildə dövlətə 162 min ton pambıq təhvil verildiyi halda, 1976-cı ildə 412 min ton pambıq təhvil verilmişdir.

Çoxsahəli xalq təsərrüfatı əhəmiyyətinə malik olan pambıqçılığın respublikamızda inkişaf etdirilməsində keçmiş Pambıqçılıq İnstitutunun səmərəli və nəticəli xidmətləri olmuşdur. AzETPİ-nin yetişdirdiyi pambıq sortlarının istehsalata tətbiqi və mexanikləşdirilmiş kompleks tədbirlərin həyata keçirilməsi Azərbaycanda pambığın məhsuldarlığının getdikcə artırılmasını və ümumi məhsul istehsalının yüksəldilməsini təmin etmişdir. Belə ki, 1925-1926-cı illərdə hər hektardan məhsuldarlıq 6-7 sentner, cəmi məhsul isə 58-60 min ton idisə, ulu öndərimizin hakimiyyəti dövründə, konkret 1974-1975-ci illərdə hər hektarın məhsuldarlığı 21,3-25,3 sentnerə, ümumi məhsul istehsalı isə 450-531 min tona çatdırılmışdır.

Elmi fəaliyyəti ərzində institutda yüzlərlə yeni aborigen pambıq sortları yaradılmış, bundan 23 sort respublikamızda rayonlaşdırılmışdır. Rayonlaşan hər bir yeni sort əvvəlki sortlardan, sələflərindən təsərrüfat qiymətli göstəricilərinə görə daha yüksək potensiallı olmaqla məhsuldarlığın və ümumi istehsalın stabil artmasına zəmin yaratmışdır. AzETPİ-nin yarandığı ilk dövrlərdə yonca, xaşa, şabdar və payızlıq göy noxud sortları da yaradılmışdır. Bu elm ocağının fəaliyyəti dövründə kənd təsərrüfatında və digər sahələrdə müvəffəqiyyətlə çalışan 200 nəfərə qədər fəlsəfə doktoru və 20-dən çox elmlər doktoru yetişdirilmişdir. İnstitutda məşhur alimlərdən A.C.Belausov, N.K.Yanuşevski, T.D.Lısenko, Q.F.Cuvarlinski, N.Y.Bekareviç, E.Z.Mazo, H.Ə.Əliyev, C.M.Hüseynov, B.M.Ağayev, Ə.N.Güləhmədov, X.O.Güləhmədov, H.Ə.Seyidov, Ə.Q.Orucov, A.B.Şəfibəyov, İ.M.Vəlizadə və başqaları çalışmışlar. Məşhur rus alimlərindən akademik N.İ.Vavilov, D.N.Pryanişnikov dəfələrlə İnstitutda olmuşlar. İnstitutun yarandığı ilk illərdə məşhur rus torpaqşünas alimlərindən - professorlardan V.P.Smirnov-Loginov, N.A.Lebedov, S.A.Zaxarov ərazinin torpaq örtüyünü, iqlim xüsusiyyətlərini isə professor İ.V.Fiqurovski öyrənmişdir.



Alimlərimizin gərgin əməyi nəticəsində yaradılmış, məhsuldarlığın və məhsulun keyfiyyətinin yüksəlməsində rayonlaşmış və istehsalatda daha çox qalan və əkilən 114, 246, 915, 1298, 2421, 2833, 3038, AzNİXİ-33, Muğan-395 sortlarının geniş tətbiqi və intensiv yayılmasının çox böyük əhəmiyyəti olmuşdur. İlk aborigen sort kimi 246 sortu 735 min hektarda, 114 sortu 546 min, 1298 sortu 2200 min, 2833 sortu 502 min, 3038 sortu 2300 min, AzNİXİ-33 sortu 1300 min, Muğan-395 sortu 456 min hektarda əkilmişdir. Ümumiyyətlə, institutun yaratdığı sortlar respublikada 10,5 milyon hektardan çox sahədə əkilmiş, həmin rayonlaşan sortlarla indiyə kimi 8 dəfə sort dəyişmə həyata keçirilmişdir. Bu müddət ərzində ilk vaxtlarda rayonlaşan sortların məhsuldarlıq potensialı hektardan 25-30 sentnerdən hazırda istehsalatda əkilən sortlarda 50-55 sentnerə, lif çıxımı 32-34%-dən 38-40%-ə, lifin uzunluğu 29-31 mm-dən 35-37 mm-ə, bir qozada xam pambığın kütləsi 4,5-5,0 qr-dan 6,5-7,0 qr-a çatdırılmışdır. Vegetasiya müddətlərinə görə isə əksinə, bu göstərici az məhsuldarlıq potensiallı və xırda qozalı ilk yaradılan sortlarda 140-160 gündən, yüksək potensiallı və iri qozalı olmaqla hazırkı sortlarda 110-120 günə endirilmişdir.

Pambıqçılıqda seleksiyaçıların nailiyyətlərindən biri də zəriflifli pambıq sortlarının yaradılmasına aid tədqiqatların uğurlu nəticəsidir. Belə ki, vegetasiya müddətinin uzunluğuna görə bizim iqlim şəraiti üçün əlverişsiz olan pambığın gecyetişən Gos.barbadense L. növü üzrə son 20 ildə aparılan yaradıcı seleksiya tədqiqatları nəticəsində vegetasiya müddətinə görə tezyetişən ortalifli (Gos. hirsutum L.) pambıq sortları ilə eyni yetişkənliyə malik zəriflifli pambıq sortları yaradılmışdır. Hazırda zəriflifli sortlardan Gəncə-46, Gəncə-120, ortalifli sortlardan isə Gəncə-132, Gəncə-164, Gəncə-170, Gəncə-181 və s. sortları SNS-də və Mühafizəsi üzrə Dövlət Komissiyasında sınaqdan keçirilir. Son illərdə İnstitutda yaradılmış AzNİXİ-195, Gəncə-2, Gəncə-8, Gəncə-78, Gəncə-80, Gəncə-103, Gəncə-110, Gəncə-114, Gəncə-160, Gəncə-182 sortlarının ilkin toxumçuluq işi qurulmuş və hazırda istehsalatda əkilib becərilir. Təcrübə sahələrində dünya kolleksiyasından 840-a qədər sort və sort nümunələri üzərində elmi yaradıcılıq işləri aparılır və yaradıcı seleksiya işində istifadə olunur.

Azərbaycan Yer kürəsinin pambıqçılıq ölkələrindən biri kimi tarixə düşmüşdür. Respublikanın pambıqçılıq bölgələrində bu bitkinin becərilməsinə aid yüz illərlə böyük təcrübə toplanmış, yaxşı ənənə yaranmışdır. Belə ki, 1913-cü ildə Azərbaycanda 100 min hektardan çox sahədə pambıq əkilmiş və 65 min ton pambıq məhsulu istehsal edilmişdir. XX əsrin ikinci yarısından, ulu öndərimiz Heydər Əliyevin rəhbərliyi dövründə respublikamızda pambıqçılıq çox sürətlə inkişaf etdirilmiş, ölkədə illik pambıq istehsalı bir milyon tona çatdırılmışdır. Ölkə büdcəsinin 22-25%-ni pambıqçılıq təmin edirdi. Ümummilli liderimiz pambıqçılığa böyük üstünlük verirdi. O, deyirdi "Pambıqçılıq çox faydalı sahədir, bu sahə yaşamalı və inkişaf etdirilməlidir".

Pambıqçılığın dinamik inkişafının elmi əsaslarla nizamlanmasını daim diqqətdə saxlayan ulu öndər bu sahənin inkişafına hər cür qayğı göstərir, pambıçılıq bölgələrinin hamısında nəticəli fəaliyyət üçün əlverişli mühit yaradırdı. O, alimlərin yaradıcı əməyini də çox yüksək qiymətləndirər, bütün elmi-tədqiqat institutlarının, xüsusilə Pambıqçılıq İnstitutunun məhsuldar elmi fəaliyyəti üçün tələb olunan maddi-texniki bazanın yaradılmasını daim nəzarətdə saxlayırdı. Həmin illərdə digər elmi-tədqiqat institutları ilə müqayisədə Heydər Əliyev tərəfindən Pambıqçılıq İnstitutunun elmi fəaliyyəti daha yüksək qiymətləndirilmiş, yaranmasının və elmi fəaliyyətinin 50 illik nəticələrinə, pambığın seleksiyası, toxumçuluğu və səmərəli becərmə texnologiyalarının işlənib hazırlanmasındakı xidmətlərinə görə "Qırmızı Əmək Bayrağı" Ordeni, institutun aparıcı alimlərinin bir qrupu isə fəxri dövlət mükafatları, orden və medallarla təltif olunmuşlar. Respublikamızda pambıqçılığın inkişafına qayğı göstərən ümummilli liderimiz Heydər Əliyev 25 noyabr 1977-ci ildə bu qocaman, müqəddəs elm ocağında olmuş, "Qırmızı Əmək Bayrağı" Ordenini, alimlərə layiq görülən fəxri adları, orden və medalları şəxsən özü təqdim etmişdir. Ulu öndərimiz Heydər Əliyev Azərbaycan Elmi-Tədqiqat Pambıqçılıq İnstitutunun 50 illik yubileyində demişdir: "Pambıqçılıq sahəsində aparılan tədqiqatlar məhsulun azı 80-90%-ni sentyabr ayında verən yüksək məhsuldar və tezyetişən sortlar yaradılmasına yönəldilməlidir. Respublikanın pambıq tarlaları seleksiya və aqrotexnika, aqrokimya və fitopotologiya, iqtisad və mexanikləşdirmə, irriqasiya və meşə meliorasiyası alimlərindən səmərəli tədqiqatlar gözləyir. Torpağın münbitliyini yüksəltməkdə birinci söz onlarındır, münbitliyin açarı elmin əlindədir. Elmi surətdə əsaslandırılmış növbəli pambıq-yonca əkininin işlənib hazırlanmasını və tətbiq olunmasını təmin etmək lazımdır. Bu, Azərbaycan şəraitində pambığın məhsuldarlığını 30-40 faiz yüksəltməyə imkan verər". Bu sözləri ümummilli liderimiz sanki bu gün üçün demişdir, bu isə dahi şəxsiyyətin uzaqgörənliyi idi.

Bu gün cənab Prezidentimiz İlham Əliyev ulu öndərimizin pambıqçılığa göstərdiyi diqqət və qayğını əzmlə davam etdirir. Belə ki, ölkə Prezidentinin 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"ndə aqrar sahənin inkişafı, məhsul istehsalı və emalı ilə bağlı 2020-ci ilədək həyata keçirilməsi nəzərdə tutulan bir sıra hədəflər qarşıya qoyulmuşdur. Kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sektorunda nəzərdə tutulan tədbirlər üzrə 2020-ci ilədək (2015-ci illə müqayisədə) əsas hədəf indikatorları müəyyən edilib, o cümlədən pambıqçılıqla bağlı, pambıq istehsalını, eləcə də emalı üzrə istehsal həcminin ən azı 4 dəfə artırılması nəzərdə tutulmuşdur. Nazirlər Kabinetinin 3 noyabr 2016-cı il tarixli qərarı ilə "Pambıq və tütün istehsalçılarına dövlət büdcəsinin vəsaiti hesabına subsidiyanın verilməsi Qaydası"nda istehsalçılara emal müəssisələrinə satdıqları xam pambığın hər 1 (bir) kiloqramına (kondisiya çəkisində) görə 0,1 manat məbləğində subsidiya verilməsi nəzərdə tutulmuşdur.

26 mart 2018-ci ildə Prezidentimiz cənab İlham Əliyevin sədrliyi ilə Bərdədə də pambıqçılığın inkişafı məsələlərinə dair respublika müşavirəsində giriş nitqində demişdir: "Bildiyiniz kimi, 2016-cı ildən başlayaraq Azərbaycanda pambıqçılığa çox ciddi dövlət dəstəyi göstərilir və nəticələr də göz qabağındadır. Qısa müddət ərzində pambıqçılığın sürətli inkişafına nail ola bilmişik. Demək olar ki, biz pambıqçılığı Azərbaycanda bərpa edirik".

Dövlət başçısı qeyd etmişdir ki, son iki il ərzində pambıqçılığın bərpası istiqamətində görülən işlər bir daha onu göstərir ki, bu sahənin çox böyük gələcəyi var. Zəhmətkeşlər, fermerlər üçün bunun çox böyük gəliri var. Ölkə iqtisadiyyatı üçün də böyük faydası var. O ki qaldı, pambıqçılıqla məşğul olan özəl şirkətlərə, onlar da lazımi səylər göstərməmişlər, pambıqçılığa lazımi səviyyədə fikir verməmişlər, lazımi həcmdə sərmayə qoymamışlar və tədricən Azərbaycanda pambıqçılıq məhv olub gedirdi. Statistik göstəricilərə baxmaq kifayətdir görək ki, 2015-ci il pambıqçılıq tarixində ən acınacaqlı il olmuşdur. Cəmi 18 min hektarda pambıq əkilmişdir və 2015-ci ilin sonlarından etibarən biz bu məsələ ilə ciddi məşğul olmağa başladıq. Qeyd etdiyim kimi, 2016-2017-ci illərdə müşavirələr keçirildi. 2017-ci ildə pambıqçılığın inkişafı ilə bağlı Dövlət Proqramı qəbul edildi, biz bu işlərlə planlı şəkildə məşğul olmağa başladıq və bu gün gözəl nəticələr haqqında danışa bilərik. İki il ərzində Azərbaycanda pambığın tədarükü 35 min tondan 207 min tona çatmışdır. Yəni, biz iki il ərzində pambığın yığımını altı dəfə artıra bilmişik.

Daha sonra cənab Prezident deyib ki, bu da son həдd deyil. Biz dövlət xətti ilə böyük həcmdə müasir texnika almışıq, -500-ə yaxın pambıqyığan kombayn, -onların böyük hissəsi artıq alınıb. Digər texnika - Azərbaycanda istehsal olunan traktorlar, eyni zamanda, xarici texnika, qoşqular. Dünən mən Bərdədə də texnikanın bir hissəsi ilə tanış olmuşam. Bu məqsədlər üçün böyük vəsait ayrılır. Gübrə ilə təminat yaxşılaşır. Azərbaycan dövləti bu sahəni də demək olar ki, öz üzərinə götürüb, 70 faiz güzəştlə gübrələr verilir. Bu sahədə əldə edilmiş uğurlara baxmayaraq, biz daha da ciddi işləməliyik. Gübrələrin keyfiyyəti daha yaxşı olmalıdır, bu sahəyə də böyük diqqət göstərilir.

Cənab Prezidentimizin Respublikamızda kənd təsərrüfatının əsas sahələrindən biri kimi pambıqçılığın inkişafına yetirdiyi diqqət "Pambıqçılıq haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi (14 iyul 2010) və "Pambıqçılıq haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı əlavə (3 mart 2011) tədbirlər barədə fərmanlar, nəhayət 13 iyul 2017-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında pambıqçılığın inkişafına dair 2017-2022-ci illər üçün Dövlət Proqramı" pambıqçılığa dövlət dəstəyinin gücləndirilməsinə və bu sahədə problemlərin həllinə yönəldilmişdir. Dövlət Proqramının icrası nəticəsində 2022-ci ildə xam pambıq istehsalı 500 min ton təşkil edəcəkdir.

2015-ci ildə Pambıqçılıq İnstitutunun bağlanması ən azından institutun tarixinə hörmətsizlik və aqrar elmə vurulan ağır zərbə idi. Son illərdə Respublikamızda pambıq istehsalının ildən-ilə artırılması, dövlət səviyyəsində dəstək verilməsi və gələcək inkişafı istiqamətində qocaman elm ocağı olan Pambıqçılıq Elmi-Tədqiqat İnstitutunun fəaliyyətinin bərpa edilməsi, pambığın genofondunun və illər boyunca yaradılmış sortların qorunub saxlanmasında, gələcək nəslə çatdırılmasında, məhsuldar nəticələrin alınmasında və pambıqçı mütəxəssislərin yetişdirilməsində böyük rol oynaya bilər. Ümumiyyətlə, Pambıqçılıq ETİ-nin bərpa olunması pambıqçılıqda yaranan hər hansı bir problemin elmi əsaslarla həlli, bir sahə institutu kimi böyük əhəmiyyətə malikdir. Qonşu Türkiyədə, Orta Asiya respublikalarında Pambıqçılıq institutları sərbəst İnstitut kimi fəaliyyət göstərirlər. Bu gün cənab Prezidentimizin pambıqçılığın inkişafına böyük önəm və diqqət yetirdiyi bir şəraitdə məhsuldarlığı artırmaq üçün fermerlərə elmi-metodiki cəhətdən kömək göstərmək, daha məhsuldar sortlar yaratmaq, torpaq-iqlim şəraitinə uyğun olaraq yeni becərmə aqrotexnologiyaları işləyib hazırlamaq məqsədi ilə Pambıqçılıq Elmi-Tədqiqat İnstitutunun bərpa edilməsi olduqca vacibdir. 94 illik elmi fəaliyyəti olan, respublikamızda ilk yaradılan tarixi institut kimi zaman-zaman Azərbaycanın iqtisadiyyatında böyük rol oynayan, pambıq istehsal edən ölkələrdə yüksək elmi nəticələri ilə tanınan, iqtisadi cəhətdən güclü inkişaf etmiş ölkəmizdə keçmiş Elmi-Tədqiqat Pambıqçılıq İnstitutunun sərbəst fəaliyyət göstərməsi üçün onun bərpa edilməsini zəruri və məqsədəuyğun hesab edirik.

**Həsənəli ASLANOV,**
**aqrar elmlər doktoru, professor.**

# DÜNYA BUGÜN

FAKTLAR, HADİSƏLƏR, ŞƏRHLƏR

## STOLTENBERQ: TÜRKİYƏ NATO-nun ƏHƏMİYYƏTLİ MÜTTƏFİQİDİR



"Türkiyənin NATO-da iştirakı və NATO-nun Türkiyə ilə əməkdaşlığı "F-35"lərdən daha dərin və əhatəlidir". "Report" agentliyinin "Hürriyet" qəzetinə istinadən verdiyi xəbərə görə, bunu NATO-nun baş katibi Yens Stoltenberq ABŞ-ın Türkiyəyə "F-35" qırıcıları verməsini qadağan etməsi haqqında qərarına münasibət bildirərkən açıqlayıb.

ABŞ-ın Kolorado ştatında keçirilən təhlükəsizlik konfransında çıxışı zamanı baş katib Türkiyənin Rusiyadan "S-400" zenit-raket komplekslərı almasına belə münasibət bildirib: "S-400" məsələsinin əhəmiyyətini azaltmaq istəmirəm. Lakin NATO müttəfiqi olaraq Türkiyə "S-400"lərdən daha əhəmiyyətlidir".

Yens Stoltenberq, Türkiyənin Rusiyada "S-400" tədarükü prosesini yaxından müşahidə etdiklərini və uyğun qurumlar arasında məsələyə dair müzakirələrin davam etdiyini vurğulayıb. O deyib: "Alacağı müdafiə sistemi haqqında qərar vermək hər ölkənin öz işidir. NATO üçün əhəmiyyətlisi bunun Alyansın sistemlərinə uyğun işləyib, işləməməsidir. Türkiyənin aldığı "S-400" kompleksləri NATO-nun müdafiə sisteminə inteqrasiya olmayacaq, çünki bunlar birlikdə fəaliyyət göstərə biləcək bir qurğu deyil. Türkiyə də belə bir tələb irəli sürməyib".

Eyni zamanda, baş katib Türkiyənin NATO üçün əhəmiyyətindən danışarkən deyib: "İŞİD terrorçularına qarşı mübarizədə Türkiyə açar bir müttəfiqdir. Bundan başqa, Türkiyə Balkanlarda, Kosovoda və Əfqanıstanda NATO-nun bir çox əməliyyatlarında da iştirak edir. Türkiyə NATO müttəfiqi olaraq, "S-400"lərdən daha mühümdür. Türkiyə NATO-nun hava müdafiə sisteminin bir parçasıdır və bu, belə də davam edəcək. Lakin Türkiyənin "F-35" proqramının bir hissəsi olmayacağından da narahatam".

## FARS KÖRFƏZİNDƏ GƏRGİNLİK ARTIR



İran İslam İnqilabı Keşikçiləri Korpusu Fars körfəzində qaçaqmalçılıq yolu ilə yanacaq daşıyan tanker saxlayıb. "Sputnik" informasiya agentliyinin məlumatına görə, xarici ölkəyə məxsus olduğu bildirilən tanker bir neçə gün öncə saxlanılıb.

Açıqlamada deyilir: "İran İslam İnqilabı Keşikçiləri Korpusu Fars körfəzində yerləşən Lərk adasından cənubda 1 milyon litr həcmində yanacağı qaçaqmalçılıq yolu ilə daşıyan xarici ölkəyə məxsus gəmi saxlayıb".

İranın "IRIB" agentliyi xəbər verir ki, gəminin göyərtəsində 12 xarici ölkə vətəndaşı olub. Həmçinin tankerin hansı ölkəyə məxsus olduğu, eləcə də gəmiçilərin vətəndaşlığı açıqlanmır.

Qeyd edək ki, Britaniyanın Cəbəllütariq boğazında İran tankerini saxlamasından və İranın cavab olaraq eyni addımı atacağı vədindən sonra Fars körfəzində vəziyyət gərgin olaraq qalır.

Xatırladaq ki, rəsmi London İran tankerinin sanksiyaları pozaraq Suriyaya neft daşıdığını bildirib, Tehran isə bu ittihamları rədd edib və gəminin buraxılmasını tələb edib.

## RUSİYA VƏ HİNDİSTAN ABŞ-ın PLANLARINI ALT-ÜST ETDİ



Rusiya və Hindistan silah satışına dair müqavilələr üzrə hesablaşmalarda milli valyutalardan istifadə edəcəklər. "Sputnik" informasiya agentliyinin "Bloomberg" nəşrinə istinadən verdiyi xəbərə görə, iki ölkənin mərkəzi bankı artıq buna dair razılaşmaya imza atıb.

Mütəxəssislər hesab edirlər ki, Rusiya və Hindistan arasında hesablaşmalarda milli valyutalardan istifadə edilməsi Vaşinqtonun təzyiqindən qurtulmağa kömək edəcək. Bu, həmçinin Rusiya rubluna olan tələbatı artıracaq, çünki sözügedən müqavilələrdə dəyəri on milyardlarla dollar olan hərbi texnikanın tədarükü nəzərdə tutulub.

Silah satışına dair müqavilə çərçivəsində rubldan istifadə etmək qərarı Vaşinqtonun sanksiya siyasətinə cavab olaraq alınıb. Qeyd edək ki, ABŞ iki il əvvəl Rusiyanın müdafiə məhsulları və texnologiyalarının idxalı və ixracı ilə məşğul olan "Rosoboroneksport" şirkətini qara siyahıya salıb. Buna görə də şirkətin bank hesabına pul köçürmək istəyən maliyyə təşkilatları sanksiyaların qurbanı ola bilər.

Bundan əvvəl analitiklər hesab edirdilər ki, Moskva və Dehli hesablaşmalarda avroya keçəcəklər. Lakin tərəflər rubla üstünlük veriblər. Bu isə Vaşinqtonun iki ölkənin ticarət münasibətlərinə müdaxiləsinin qarşısını alır.

## AVROPALI EKSPERTLƏR: RUSİYA QƏFİL HÜCUMA KEÇƏ BİLƏR



"Rusiya qadağan olunmuş raketlərlə silahlanmağa davam edir və Avropada müharibə aparmağa hazırlaşır". "Sputnik" informasiya agentliyinin "Die Welt" qəzetinə istinadən verdiyi xəbərə görə, bu iddiaları alman ordusunun istefada olan general-leytenantı, NATO baş katibinin keçmiş müavini Haynrix Braus və Kil Universitetinin Təhlükəsizlik Siyasəti İnstitutunun direktoru Yoaxim Krauze səsləndiriblər.

Y.Krauzenin fikrincə, Avropanın iqlim dəyişikliyi və miqrasiya böhranı ilə mübarizə apardığı bir vaxtda Rusiya heç bir əsas olmadan regional müharibələrə hazırlaşır və guya bu müharibələrdə nüvə silahından təhdid vasitəsi kimi istifadə etmək niyyətindədir.

H.Braus isə bildirib ki, Rusiya qəsdən Qərb ölkələri ilə münaqişə yaratmağa, dünya nizamını və NATO-nun birliyini sarsıtmağa çalışır. Lakin keçmiş hərbçinin sözlərinə görə, rəsmi Moskva NATO ilə münaqişədən qalib çıxa bilməyəcəyini anlayır, buna görə də Rusiya guya "qəfil zərbə" endirə bilər.

Bununla yanaşı, Rusiyanın Geosiyasi Problemlər Akademiyasının prezidenti, hərbi elmlər doktoru Konstantin Sivkov bu iddialara cavab olaraq bildirib ki, "Die Welt" qəzetində nəşr olunmuş məqalə Almaniyanın müdafiə xərclərinin artırılmasına yönəlib.

## TÜRKİYƏ "F-35" PROQRAMINDAN 9 MİLYARD DOLLAR İTİRƏCƏK



ABŞ-ın Müdafiə Nazirliyi Türkiyənin "F-35" təyyarələrinin yaradılması proqramından çıxarılması ilə əlaqədar maliyyə itkilərini açıqlayıb. "Report" agentliyinin "RİA "Novosti"yə istinadən verdiyi xəbərə görə, bu barədə Birləşmiş Ştatların müdafiə nazirinin müavini Ellen Lord bildirib.

Pentaqon rəsmisinin məlumatına görə, Türkiyənin maliyyə itkiləri 9 milyard dollar təşkil edəcək.

Ellen Lord deyib: "Türkiyə, təəssüf ki, iş yerləri və bəzi iqtisadi imkanlar itirəcək. Bu ölkə "F-35" proqramı üzrə kooperasiya proqramı çərçivəsində yönəldilmiş vəsaitdən 9 milyard dollar əskik alacaq".

Eyni zamanda, Pentaqon rəsmisinin sözlərinə görə, Türkiyə "F-35" üçün 900-dən çox detal istehsal etməli idi.

Ellen Lord həmçinin qeyd edib ki, "F-35" proqramı üzrə təlim almış bütün türk pilotları, həmçinin təlimatçılar, hansılar ki, hazırda ABŞ-dadır, ölkəni tərk etməli olacaqlar.

"F-35"lərin alınması və proqramın reallaşdırılması üzrə ABŞ-ın Müdafiə Nazirliyi bölməsində işləyən 20 türk hərbi qulluqçu daha öz iş yerlərinə giriş əldə edə bilməyəcək", - deyə Ellen Lord vurğulayıb.

## PENTAQON GƏNƏLƏRDƏN BİOLOJİ SİLAH YARADIB?



Pentaqon gənələrdən bioloji silah yaratmaq istəyib. "Sputnik" informasiya agentliyinin məlumatına görə, belə bir iddianı Konqresin Nümayəndələr Palatası irəli sürüb.

İttihama əsasən, ABŞ Müdafiə Nazirliyi 1950-1975-ci illərdə gənə və digər həşəratlar üzərində təcrübələr apararaq onları bioloji silaha çevirməyə çalışıb. Lakin naməlum səbəbdən həşəratlar sonradan təbiətə buraxılıb.

Güman edilir ki, son dövrlərdə Borrelioz (Laym) xəstəliyinin geniş yayılması məhz Pentaqonun həşəratlar üzərində apardığı təcrübələrlə əlaqəlidir.

Verilən xəbərə əsasən, Nümayəndələr Palatası artıq təhqiqat aparmağı tələb edib. Belə ki, respublikaçı konqresmen Kris Smitin məsələ ilə bağlı təklif düzəlişlər 2020-ci ilin müdafiə büdcəsinə dair qanun layihəsinə əlavə edilib. Düzəlişlərə əsasən aparılacaq təhqiqat çərçivəsində Pentaqon bu məsələ ilə bağlı suallara cavab verməli olacaq.

"Roll Call" nəşrinin verdiyi məlumata əsasən, amerikalı hərbçilərin həqiqətən də bu cür eksperimentlər apardığı üzə çıxarsa, Pentaqon bununla bağlı Nümayəndələr Palatasının və Senatın silahlı qüvvələr komitələrinə hesabat verməli olacaq. Müdafiə Nazirliyi, həmçinin bu təcrübələrə məruz qalmış gənə və həşəratların təsadüfən və ya qəsdən təbiətə buraxıldığı iddialarına cavab verməlidir. ■

---

# Azərbaycan Respublikası Səhiyyə Nazirliyi

*Milli Onkologiya Mərkəzinin uşaq onkologiyası, əməliyyatxana, reanimasiya, I kimyaterapiya, urologiya, baş-boyun, molekulyar laboratoriya, patasitomorfologiya, MRT, sterilizasiya, cəmaşirxana və s. şöbələrdə olan tibbi və qeyri-tibbi avadanlıqlara texniki xidmətlərin göstərilməsi və ehtiyat hissələrinin satınalınması üçün*

## AÇIQ TENDER ELAN EDİR

**Tender 1 lot üzrə keçirilir.**

**Lot-1.** Tibbi və qeyri tibbi avadanlıqlara texniki xidmətlərin göstərilməsi və ehtiyat hissələrinin satınalınması.

1. Tenderin iştirakçılarına təklif olunur ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq tender təklifi, təklifin bank təminatı və qiymət cədvəlini 1 ədəd "Əsli" və 1 ədəd "Surəti" olmaqla ikiqat bağlı zərfdə və hər iki zərfin bağlı tərəfi iddiaçı tərəfindən imzalanıb möhürlənmiş şəkildə yazılı surətdə 02 sentyabr 2019-cu il, saat 10:00-a qədər Milli Onkologiya Mərkəzinə (Az1011, Bakı şəhəri, H.Zərdabi küçəsi 79B) təqdim etsinlər.

2. Tender prosedurunun başlanması və təklif zərflərinin açılışı 03 sentyabr 2019-cu il saat 12:00-da.

3. Tender təkliflərində malların və xidmətlərin qiymət dəyərindən başqa Azərbaycan Respublikasının mövcud qanunvericiliyində nəzərdə tutulmuş tələblərə uyğun olaraq bütün vergilər, rüsumlar və digər xərclər nəzərə alınmaqla göstərilməlidir.

4. Satınalma müqaviləsinin icrasını təmin etmək üçün iddiaçılarda üstünlük veriləcək meyarlarda sərfəli qiymət, maliyyə və texniki imkanlar, etibarlığının olması nəzərə alınacaqdır.

5. Tenderdə iştirak etmək istəyənlər lot üzrə **100 (yüz) manat** məbləğində iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra tenderin əsas şərtlər toplusunu ala bilərlər (əlaqə telefon: 537-13-04).

**Dövlət Xəzinədarlıq Agentliyi**
**Kod: 210005**
**VÖEN: 1401555071**
**M/h: AZ41 NABZ01360100000003003944**
**S.W.İ.F.T. BİK CTREAZ 22**
**Milli Onkologiya Mərkəzi**
**İBAN: AZ74CTRE00000000000004448470**
**VÖEN: 1300597461**
**Büdcə təsnifatının kodu: 142340**
**Büdcə səviyyəsinin kodu: 7**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

6. Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib olunmuşdur.

7. Tenderdə iddiaçı kimi iştirak etmək istəyən malgöndərənlər aşağıdakı sənədləri təqdim etməlidirlər:

*-tenderdə iştirak etmək üçün yazılı müraciət (ərizə);*

*-tenderdə iştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi;*

*-tender təklifi (zərflərin açıldığı tarixdən ən azı 30 bank günü qüvvədə olmalıdır);*

*-tender təklifinin dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən ən azı 60 bank günü qüvvədə olmalıdır);*

*-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayış;*

*-İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hasabatının surəti;*

*-İddiaçının son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəalyyəti dövründəki) maliyyə vəziyyəti haqqında bank tərəfindən verilmiş arayış;*

*-İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi (notarial qaydada təsdiq olunmuş), qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*

*-İddiaçının son bir ildə analoji işlər üzrə təcrübəsi və potensial imkanı haqqında məlumat.*

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və təklifin bank zəmanəti istisna olmaqla) 23 avqust 2019-cu il saat 17:00-a qədər) Milli Onkologiya Mərkəzinə (ünvan: Bakı şəh. H.Zərdabi 79B) təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş tender təklifləri tender komissiyası tərəfindən qəbul olunmur və açılmadan geri qaytarılır.

İddiaçı və ya onun müvafiq qaydada təsdiqlənmiş sənədlə müvəkkil etdiyi şəxs tender prosedurunun açılışında iştirak edə bilər.

**Tender Komissiyası.**

---

# Ağstafa Suvarma Sistemləri İdarəsi 2019-cu il üçün

## AÇIQ TENDER ELAN EDİR

**Lot-1. Ağstafa SSİ-nin istehsal obyektlərinin əsaslı və cari təmiri üçün tikinti materialların satınalınması.**

İşlərin yerinə yetirilməsi müddəti ilin axırına qədərdir.

Tender iştirakçılarına təklif olunur ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış, ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları müvafiq sahədə peşəkarlığı, təcrübəsi, texniki və maliyyə imkanları, işçi qüvvəsi, idarəetmə səriştəsi, etibarlılığı və s. barədə müvafiq sənədləri təqdim etməlidilər.

Tenderdə iştirak etmək istəyənlər lot üçün 60 manat iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Ağstafa şəhəri, Ş.Qurbanov küçəsi, 19 nömrəli ünvandan ala bilərlər:

**Əlaqələndirici şəxs:** Aşırov Nürəddin Tapdıq o. (02222) 5-26-67

**Ağstafa Rayon YXO**
**Hesab: AZ85AİİB32051019445200201152**
**VÖEN: 3600068011**
**Bank: "Kapital Bank"ın Ağstafa filialı**
**VÖEN: 9900003611**
**Müxbir hesab: AZ 37 NABZ 01350100000000001944**
**S.W.İ.F.T. BİK AİİBAZ 2X**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidilər:

*-tenderdə iştirak etmək üçün yazılı müraciət;*

*-tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*

*-tender təklifi (zərflərin açıldığı tarixdən ən azı 30 bank günü qüvvədə olmalıdır);*

*-tender təklifinin dəyərinin 1%-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən ən azı 60 bank günü qüvvədə olmalıdır);*

*-satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki və maliyyə imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlılığının olması;*

*-satınalma müqaviləsini bağlamaq səlahiyyəti olması;*

*-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*

*-iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*

*-iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*

*-iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*

*-müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilinə 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 26 avqust 2019-cu il saat 17:00-a qədər, tender təklifi və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə 3 sentyabr 2019-cu il saat 17:00-a qədər Ağstafa Suvarma Sistemləri İdarəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifi 4 sentyabr 2019-cu il saat 12:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Tender Komissiyası.**

---

AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

RESPUBLİKA

REKLAM VƏ ELAN XİDMƏTİ

441-20-23

---

# "IBC 2019" beynəlxalq sərgi və konfransında "Azərkosmos" ASC-yə məxsus stendin təşkil edilməsi xidmətinin satın alınması barədə

"Azərkosmos" Açıq Səhmdar Cəmiyyəti 2019-cu ilin 13-17 sentyabr tarixlərində Niderland Krallığının Amsterdam şəhərində keçiriləcək "IBC 2019" beynəlxalq sərgi və konfransında "Azərkosmos" ASC-yə məxsus stendin təşkil edilməsi xidmətinin satın alınması məqsədi ilə kotirovka sorğusu keçirir və bu məqsədlə ixtisaslaşmış şirkətləri qeyd olunan kotirovka sorğusunda iştirak etməyə dəvət edir. Qiymət kotirovkaları bağlı zərfdə, imzalanmış və möhürlənmiş şəkildə Bakı şəhəri, Səbail rayonu, Ü.Hacıbəyli küçəsi 72, M5 ünvanında yerləşən "Azərkosmos" ASC-yə 26 iyul 2019-cu il Bakı vaxtı ilə saat 18:00-a qədər təqdim olunmalıdır. Bu müddətdən gec təqdim olunmuş zərflər qəbul edilməyəcək. Təklif zərfləri 29 iyul 2019-cu il saat 10:00-da qeyd olunan ünvanda açılacaqdır. Zərflərin açılışı ilə bağlı iclasda iştirak etmək istəyən fiziki və hüquqi şəxslər nümayəndələrinin adına etibarnamə təqdim etməlidirlər. Kotirovka təklifi zərflərin açılışı günündən başlayaraq ən azı 30 bank günü ərzində qüvvədə olmalıdır.

Təşkilati işlər departamentinin mütəxəssisi - Ceyhun Əliyev

**Əlaqə nömrəsi:** +99412 565-00-55

---

# BİLDİRİŞ

Dövlət Sərhəd Xidmətinin tələbatı üçün "Respublika" qəzetinin 11 iyun 2019-cu il tarixli buraxılışında dərc edilmiş tender elanında qeyd olunan aşağıdakı adı göstərilən lot üzrə sənədlərin qəbulu 31 iyul 2019-cu il saat 15:00-dək, tender təkliflərin təqdim olunduğu son tarix isə 08 iyul 2019-cu il saat 16:00-dək uzadılmışdır.

**Hesab: Dövlət Xəzinədarlığı Agentliyi**
**kod: 210005;**
**VÖEN 1401555071;**
**M/h: AZ41NABZ01360100000000003944;**
**S.W.İ.F.T BİK: CTREAZ22;**
**Dövlət Sərhəd Xidməti**
**VÖEN 1700360581;**
**H/h: AZ19CTRE00000000000002388501;**
**XHK 142319 2388501(2310) fond 3**
**Əlaqə telefonu:** (012) 498-01-36

Qeyd olunan lot üzrə iddiaçıların təklifləri 09 iyul 2019-cu il tarixdə, saat 15:00-da Bakı şəhəri, Zərifə Əliyeva küçəsi-30 ünvanında yerləşən Dövlət Sərhəd Xidmətinin Aparatının inzibati binasında açılacaqdır.

| Lotun N-si | Lotun adı | İştirak haqqı (manatla) |
|---|---|---|
| Lot 1 | Sipər-1 işarəverici qurğularının satınalınması və quraşdırılması işləri | 170 |

**Dövlət Sərhəd Xidmətinin Tender komissiyası.**

---

Ağdaş Rayon İcra Hakimiyyəti 2019-cu ildə yumşaq inventar, yataq ləvazimatları, xüsusi geyimlərin və digər alışlar və xidmətlərin yerinə yetirilməsi məqsədilə "Korinf 2020" Məhdud Məsuliyyətli Cəmiyyəti ilə 18 iyul 2019-cu il tarixdə müqavilə imzalamışdır.

**Tender Komissiyası.**

---

Ağdaş Rayon İcra Hakimiyyəti tərəfindən 04 iyun və 14 iyun 2019-cu il tarixlərdə Ağdaş şəhəri Müşfiq İsayev və Nəsimi küçələrində asfalt-beton yol örtüyünün təmiri işlərinin yerinə yetirilməsi məqsədilə verilmiş Açıq Tender elanı üzrə tenderdə iştirak edəcək təşkilatların təkliflərinin gec daxil olduğunu nəzərə alaraq açılışı 14 avqust 2019-cu il tarixə təyin edilmiş Açıq Tender ləğv edilmişdir.

**Tender Komissiyası.**

---

Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin Bakı şəhər Ərazi İdarəsi tərəfindən "Caspian Petrol-1" Firmasının adına verilmiş qeyri-yaşayış binasının (reyestr nömrəsi 002013001159-06301; ünvan: Bakı şəhəri, Qaradağ rayonu, Salyan şossesi, 14-cü km, 3) Texniki Pasportu itdiyi üçün etibarsız sayılır.

DTXK-nin Şabran rayon şöbəsi tərəfindən Baxşıyev Sərdar Hafiz oğlunun adına Uzunboyad kəndində verilmiş JN-110 saylı Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

İsmayılzadə Azər Elxan oğlunun adına Bakı şəhəri Binəqədi rayonu, Ü.Hacıbəyli küçəsi, ev 6, mənzil 61-ə verilmiş çıxarış itdiyi üçün etibarsız sayılır.

Şahverdiyeva İzzət Xanım Qədir qızının adına olan Bakı şəhəri, Nəsimi rayonu, Mərdanov qardaşları küçəsi, ev 72/103 ünvanına verilmiş qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin Lənkəran ərazi idarəsi tərəfindən Lənkəran rayonunun Sütəmurdov kəndində yerləşən və Qurbanova Qəşəng Şahmirzə qızına məxsus olan fərdi yaşayış evinə (yarımçıq tikili) verilmiş Hüquqların qabaqcadan qeydiyyatı barədə daşınmaz əmlakın dövlət reyestrindən arayış (reyestr N802013001957-10301; qeydiyyat N2211005527; qeydiyyat tarixi: 26 iyul 2011-ci il) itdiyi üçün etibarsız sayılır.

Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin Lənkəran ərazi idarəsi tərəfindən Lənkəran rayonunun Digah kəndində yerləşən və Əzimov Kamran Penci oğluna məxsus fərdi yaşayış evinə verilmiş Daşınmaz Əmlakın Dövlət Reyestrindən çıxarış (seriya RX; N0001696; reyestr N802013016081-10301; qeydiyyat N2212004487; qeydiyyat tarixi: 5 iyul 2012-ci il) itdiyi üçün etibarsız sayılır.

Lənkəran rayon aqrar islahat komissiyasının 13 avqust 1997-ci il tarixli 8 nömrəli qərarı ilə Haftoni qəsəbə sakini Tağıyev Vaqif Baba oğluna verilmiş Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı (JN 0055; KOD 80205005) itdiyi üçün etibarsız sayılır.

Lənkəran rayon aqrar islahat komissiyasının 15 aprel 1998-ci il tarixli 7 nömrəli qərarı ilə Osakücə kənd sakini Həbibov Camal Musa oğluna verilmiş Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə (JN 374 F; KOD 80216018) itdiyi üçün etibarsız sayılır.

Lənkəran rayon aqrar islahat komissiyasının 15 aprel 1998-ci il tarixli 7 nömrəli qərarı ilə Osakücə kənd sakini Fərzullayev Amil Ramazan oğluna verilmiş Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə (JN 391 F; KOD 80216018) itdiyi üçün etibarsız sayılır.

Lənkəran rayon aqrar islahat komissiyasının 30 may 1998-ci il tarixli 10 nömrəli qərarı ilə Ürgə (keçmiş Marso) kənd sakini Rəcəbov Ağaddin Lətif oğluna verilmiş Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı (JN 0086; KOD 80215028) itdiyi üçün etibarsız sayılır.

Astara rayon aqrar islahat komissiyasının 2 iyul 1999-cu il tarixli 18 nömrəli qərarı ilə Astara şəhər sakini Əliyev Amil Hacıağa oğluna məxsus həyətyanı torpaq sahəsinə verilmiş Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə (JN 1301 A; KOD 80101004) itdiyi üçün etibarsız sayılır.

Siyəzən rayonu Taqar kənd sakini Quliyeva Əfriz Şirəli qızının adına verilmiş torpağa mülkiyyət hüququna dair Dövlət Aktı (JN: 0038, kod: 30505028) itdiyi üçün etibarsız sayılır.

Məmmədov Azər İlyas oğluna məxsus 90 OR 957 dövlət nişanlı MİTSUBİSHİ PAJERO MİNİK avtomobilinin texniki pasportu itdiyi üçün etibasız sayılır.

---

Baş redaktor
Teymur ƏHMƏDOV

● Redaksiyanın telefonları:

İqtisadiyyat və islahatlar redaksiyası: 539-95-51;
Siyasət, ictimai problemlər və analitik təhlil redaksiyası: 538-55-20;
Beynəlxalq əlaqələr, dövlət quruculuğu və hüquq redaksiyası: 539-26-18;
Humanitar siyasət redaksiyası: 538-25-70;
Xəbərlər redaksiyası: 538-61-02;
İctimai rəy və sosial problemlər redaksiyası: 539-95-51; 538-43-41 tel/faks;
Qəbul otağı: 538-25-70;
Katiblik: 538-25-70;
Reklam və elan xidməti: 441-20-23.



● Redaksiyanın ünvanı:

AZ1073, Bakı
Mətbuat prospekti, 529-cu məhəllə, VII mərtəbə.
E-mail: resp@azdata.net
www.respublica-news.az
"Respublika" qəzetinin kompyuter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.
Qeydiyyat № 7.

İndeks 0240
Tiraj 4292
Sifariş 023
Qəzetin satış qiyməti 40 qəpik

Məsul növbətçi
Kamal İBADOV

● Çapa imzalanmışdır
18.07.2019